## Əsgərimizin minaya düşməsi xəbəri yalandır

### Xocavənd rayonu istiqamətində hər hansı partlayış baş verməyib



**Xocavənd rayonunda Azərbaycan Ordusunun əsgərinin guya piyada əleyhinə minaya düşməsi ilə bağlı yayılan məlumata Müdafiə Nazirliyi münasibət bildirib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, sentyabrın 21-də Xocavənd rayonu istiqamətində hər hansı partlayış baş verməyib: "Nazirliyin tabeliyində olan hərbi hissələrdə ümumiyyətlə yayılan məlumatda qeyd olunduğu kimi Nəbiyev Samir Sahib oğlu adlı hərbi qulluqçu yoxdur. Bütün KİV-ləri və sosial şəbəkə istifadəçilərini yalan və rəsmi mənbələrdən dəqiqləşdirilməmiş məlumatlar yaymamağa çağırırıq".

## ABŞ İranla nüvə razılaşmasına qayıtmağa hazırdır



**ABŞ İranla nüvə razılaşmasına qayıtmağa hazırdır və İran hakimiyyətindən də eyni şeyi gözləyir.**

Trend-in "Reuters"ə istinadən verdiyi məlumata görə, bunu BMT Baş Assambleyasında çıxışı zamanı ABŞ Prezidenti Cozef Bayden deyib.

**C.Bayden qeyd edib ki, Tehranın əməkdaşlıq etmək istəyi Vaşinqtonun anoloji cavab verməsinin şərtidir:** "ABŞ İranın nüvə silahı əldə etməsinin qarşısını almağa sadiqdir".






№ 171 (5452), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az    22 sentyabr 2021-ci il (çərşənbə)

## Şirin Mirzəyev anıldı

### Türkiyədə Milli Qəhrəmanımızın adına parkın açılışı olub

**Dünən Türkiyənin Bursa şəhərində Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin adına salınmış parkın açılışı olub.**

APA-nın yerli bürosuna xəbərinə görə, Bursanın Karacabəy rayonunun Kurşunlu məhəlləsində salınan parkın açılış mərasimində Birinci Qarabağ müharibəsində şəhid olmuş polkovnik-leytenant Şirin Mirzəyevin döyüş yolundan, Azərbaycanın 44 günlük Vətən Müharibəsi zamanı qazandığı qələbədən, qardaş Türkiyənin hər zaman Azərbaycana verdiyi dəstəkdən bəhs edilib.

Bursa şəhərində Azərbaycanın Milli Qəhrəmanları Polad Həşimov və Şirin Mirzəyevin adını daşıyan parkların açılması Türkiyə-Azərbaycan qardaşlıq və dostluq münasibətlərinin bariz nümunəsi adlandırılıb. Azərbaycanın digər qəhrəmanlarının da adına parkların salınması prosesinin davam edəcəyi nəzərə çatdırılıb.

Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova və "Gələcəyin İnsanları Məkanı, Gələcəyin İmkanları Məkanı - Azərbaycan deyincə" dərnəyinin sədri Hüseyn Vəliyev Milli Qəhrəmanın adının Türkiyədə əbədiləşdirilməsinə görə Karacabəy bələdiyyəsinə xüsusi minnətdarlıqlarını ifadə ediblər.

# Müzakirələr başlayır

### Zahid Oruc: "Sosial şəbəkələrin statusunu dəqiq müəyyən etməliyik"



**"Əminik ki, kimsə süngüsünü götürüb parlament üzvlərinin üzərinə hücum çəkməyəcək. Çünki burada qəti şəkildə hansısa senzuradan, basqıdan, şəbəkələrin cilovlanmasından söhbət getmir"**

**Milli Məclisdə medianın və sosial şəbəkələrin mövcud durumu müzakirə olunacaq. Bu məsələ parlamentin İnsan hüquqları komitəsinin 2021-ci il payız sessiyası üçün iş planına daxil edilib.**

Qeyd edilib ki, sessiya müddətində Ombudsman və Medianın İnkişafı Agentliyinin iştirakı ilə ölkədə medianın, o cümlədən sosial şəbəkələrin mövcud durumu və yeni inkişaf strategiyası ilə bağlı müzakirə və dinləmələrin təşkili, diffamasiya ilə bağlı məsələlərin müzakirəsi həyata keçiriləcək. Eyni zamanda komitədə sessiya müddətində diffamasiya haqda qanunvericilik sahəsində dinləmələrin keçirilməsi də nəzərdə tutulub. Məlumat üçün bildirək ki, sosial şəbəkələrin tənzimlənməsi üçün dünyanın əksər ölkələrində çoxsaylı təkliflər irəli sürülüb, modellər təqdim edilib.

(səh.3)



## Ceyhun Bayramov Nyu-Yorkda Mövlud Çavuşoğlu ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu-Yorkda türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşüb.**

Bu barədə C.Bayramov "Twitter" hesabında yazıb.

Nazir bildirib: "Qardaşım Mövlud Çavuşoğlu ilə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində görüşdük".

## AŞ PA-da İkinci Qarabağ müharibəsinin fəsadları müzakirə olunacaq




**İkinci Qarabağ Müharibəsinin humanitar fəsadları Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyasında müzakirə olunacaq.**

Müzakirələr sentyabrın 27-də İkinci Qarabağ Müharibəsinin başlanmasının ildönümündə debat formasında keçiriləcək.

*Qeyd edək ki, AŞ PA-nın payız sessiyası sentyabrın 27-dən 30-dək hibrid formatda keçiriləcək. Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə son qoymuş İkinci Qarabağ Müharibəsi 44 gün, sentyabrın 27-dən noyabrın 10-u, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanat imzalamasınadək davam etmişdi.*



## Türkiyə və Azərbaycan qırıcıları şou göstərdi

**Dünən Bosfor boğazı üzərində Azərbaycan və Türkiyə qırıcıları növbəti salamlama uçuşları keçirib.**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi bildirib.

Uçuşda Türkiyə HHQ-yə məxsus F-16, F-4 və Azərbaycan HHQ-yə aid 2 ədəd MiQ-29 qırıcı təyyarələri iştirak edib.

*Qeyd edək ki, bu gün İstanbulda "Texnofest-2021" festivalı başlayıb. Sentyabrın 26-dək davam edəcək festival çərçivəsində Azərbaycan və Türkiyə hərbi təyyarələri nümunəvi uçuşlar həyata keçirəcək.*

## İran xarici işlər nazirinin müavini 3 günlük Bakıya səfərə gəlir

**Bu gün İran xarici işlər nazirinin müavini Məhəmməd Kazım Səccadpur Azərbaycana səfər edəcək. Bu barədə Trend-ə İranın Azərbaycandakı səfirliyindən məlumat verilib.**

Bildirilib ki, nazir müavini Azərbaycan, İran və Türkiyə arasında araşdırmalar mərkəzlərinin üçtərəfli iclasında iştirak edəcək.

Bakıya 3 günlük səfər çərçivəsində İran xarici işlər nazirinin müavini və İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Azərbaycanın bəzi rəsmiləri ilə görüşərək danışıqlar aparacaq.




## Daha 1 594 nəfər koronavirusa yoluxub

### 26 nəfər ölüb, 2 543 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 594 yeni yoluxma faktı qeydə alınıb, 2 543 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

## Mütləq COVID-19 pasportu olmalıdır

### Əks təqdirdə taksi və avtobus sürücüləri oktyabrın 1-dən reysə buraxılmayacaq



**"Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarına əsasən COVID-19-a qarşı peyvənd olunması və ya immunitet sertifikatının tələb olunduğu iş və xidmət sahələrinə avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti daxildir".**

Bunu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova deyib. N. Allahyarova bildirib ki, bu səbəbdən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən qərarın icrasının təmin olunması ilə bağlı bütün daşıyıcı şirkətlərə xəbərdarlıq edilib.

"Oktyabrın 1-dən etibarən immun sertifikatı və COVID-19 pasportu olmayan sürücülər aşkarlanarsa, həmin sürücülərin reysdə iştirakına icazə verilməyəcək", - deyə N. Allahyarova qeyd edib.



## Amilinin xütbəsində tülkü amili

**Din bir tərəfə, siyasət də heyvan üzərində qurular? Ayətullah Seyid Həsən Amili xütbələrini daha heyvanlar üzərində qurur. Vallahi-billahi, maraqlı bir işdir. Görünür, islamın ən böyük mühafizəçisi müsəlman birliyindən, doğruluqdan, haqdan xütbə oxuyar. Amma Ayətullah statusu bu adama heç yaraşmır, mollabaşdır ki, mollabaş.**

Bu mollabaşı Seyid Həsənin ilk sərsəmləməsi deyil ki? Azərbaycan nə zaman ki, Qarabağ deyib torpaq bütünlüyü davasını önə çəkir, onda İran Amilidən amil kimi istifadə edib, önə çəkir. Əlinə hazır bir xütbə verib, oxutdurur.

Bu mollabaşı iki il əvvəl Cümə namazlarının birində qara libasını geri çəkib, qeyri-ciddiliyinə düzəliş etməyə çalışıb, hayqıra-hayqıra deyirdi: "Açın sərhədi, gedək, Qarabağda döyüşək". O hətta ölməyə də hazır idi. Həmin vaxt iranbaşlar bu fikri qəbul etməyənləri İsrailə işləməkdə günahlandırırdılar. Amma atalar misalı, "yalan ayaq tutsa da yeriməz". Görünür, Amilinin sözü də özü kimi topal imiş... Vaxt keçdi, Azərbaycan dostlarını yanında gördü, Ermənistandakı kafirlərin başına yumruq vurdu, amma bu qovğada Amili kimi İran amili də müsəlman tərəfə, xeyirin şər üzərində qələbəsində görünmədi.

(səh.3)



## "İlk dəfə idi Şuşada olurdum"

*Nizami Cəfərov:*

"Çəkinmədən deyirəm ki, Şuşanın simvollarından biri də Vaqifdir"

(səh.4)



## "Kitabların səyyar satışı milli biabırçılıqdır"

***Aqşin Yenisey:*** "Kitab kimi, kino kimi dünyaya milyonlar qazandıran sənət janrları Azərbaycanda küçələrdə tüfeyli həyat yaşayır"

(səh.5)

# Prezident və birinci xanım Bakı Avropa Liseyinin yeni binasının açılışında iştirak ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 21-də paytaxtdakı Ağ Şəhərdə Bakı Avropa Liseyi üçün inşa edilən 1560 şagird yerlik yeni binanın açılışında iştirak ediblər.**

Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Bakı Avropa Liseyinin yeni binasında yaradılan şərait barədə məlumat verdi.

İnşasına ötən il başlanılan bu tədris müəssisəsində 70 sinif otağından başqa fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi hazırlıq kabinetləri, kino məktəb, rəsm, diplomatiya, kiçik elmlər akademiyası otaqları, art-studio, idman və akt zalları, yeməkxana müəllimlərin və şagirdlərin ixtiyarına veriləcək. Bir sözlə, burada yaradılan şərait istedadlı şagirdlərin intellektual və yaradıcı potensialının üzə çıxarılması və inkişafı, onların yüksək mənəvi və mədəni dəyərlərə əsaslanaraq formalaşdırılması üçün geniş imkanlar yaradır.

Qeyd edək ki, istedadlı uşaqlar üçün yaradılmış Bakı Avropa Liseyi Təhsil Nazirliyinin tabeliyində olan dövlət məktəbidir. Hər il məzunlarının 100 faizi ali məktəblərə yüksək balla daxil olan liseyin yetirmələri dünyanın bir çox nüfuzlu universitetlərində təhsillərini davam etdirirlər.

Liseyin özünəməxsus təhsil modeli var. Mühəndis, robot, iclas, incəsənət, elm və kids zonalarına bölünən steam otaqda şagirdlər üçün müasir dövrün tələblərinə uyğun hər cür şərait yaradılıb.

Məlumdur ki, müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsilinin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər inkişaf konsepsiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu baxımdan Azərbaycanda dövlət səviyyəsində çox əhəmiyyətli layihələr ardıcıl şəkildə həyata keçirilir. Görülən bütün bu işlər yüksək intellektə malik insan kapitalının yetişməsində, beynəlxalq standartlara uyğun müasir təhsil sisteminin qurulmasında mühüm rol oynayır, peşəkar, bilik və bacarıqlara yiyələnən, daim rəqabətə davamlı insan resurslarının təmin edilməsinə böyük töhfə verir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı reallaşdırılan kompleks tədbirlər nəticəsində bu sahədə böyük uğurlar əldə olunub, müasir innovativ tədris üsulları uğurla tətbiq edilib.

# İqtisadi əlaqələr uğurla inkişaf edir

## Prezident İlham Əliyev "DP World" şirkətlər qrupunun sədri və icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul edib.**



Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı investisiya qoyuluşu, logistika sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda bildirildi ki, Azərbaycanın təşəbbüskarı olduğu yeni nəqliyyat dəhlizlərinin açılması və ölkəmizdə azad ticarət zonasının fəaliyyətə başlaması həm ölkələrimiz arasında, həm də regionda iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayacaq.

# XİN başçısının ABŞ səfəri bu dəfə fərqli görünür

## Ceyhun Bayramovun portfelində müzakirə olunası çox məsələlər var



**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-ın Nyu-York şəhərinə yola düşüb. C.Bayramov və nümayəndə heyəti səfər çərçivəsində BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirak edəcək.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, səfər zamanı sessiya çərçivəsində keçiriləcək tədbirlərdə iştirak, habelə xarici dövlətlərin rəsmiləri ilə ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulur.

**Məlum səfərin əhəmiyyətini "Şərq"ə şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti, politoloq Samir Hümbətov qeyd edib ki, Ceyhun Bayramovun indiki vəziyyətdə ABŞ-a səfəri bir neçə tarixi əlaməti ilə yadda qalıb:**

"Bunlardan biri odur ki, Azərbaycan İkinci Qarabağ savaşında qalib gəlib və C.Bayramov zəfər çalan dövlətin XİN başçısı statusu ilə bu səfərə yollanıb. Hesab edirəm ki, nazirimiz əsasən dövlət və hökumət nümayəndələri ilə görüşlər keçirəcək. Həmin rəsmi şəxslər əsasən Azərbaycanla əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə bu görüşə qatılacaqlar.

Səfər əvvəlkilərdən çox fərqlənir. Yəqin ki, C.Bayramov budəfəki səfəri zamanı həm də ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin xarici siyasət idarələrinin başçıları ilə də görüşəcək.

Məhz bu görüş uzun müddətdir ATƏT tərəfindən səsləndirilən fikirlərin susdurulması və sözkəsənlik xarakteri daşıyacaq. Ümumilikdə isə dost və müttəfiq dövlətlərlə müzakirələrin aparılması daha böyük ehtimala malikdir. Səfərə sadəcə olaraq BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirak etmək üçün yox, həm də üçtərəfli bəyanatın imzalanmasından sonra böyük görüş kimi yanaşmaq lazımdır. Səfər çərçivəsində son dövrlər İran-Azərbaycan və Ermənistan-Azərbaycan sərhədində baş verən proseslərin müzakirəsi də gözlənilir".

**Yeganə Bayramova**

# Paşinyan separatçıları Rusiyanın "qucağına" itələyir

## Asif Nərimanlı: "Etnik münaqişə" kartı davamlı risklər yarada bilər"



**"Rəsmi İrəvan Xankəndidəki separatçılara sosial-iqtisadi dəstəyi saxlasa da, siyasi təmasları minimuma endirir". Bunu "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, bunun birdən çox səbəbi mümkündür:**

"Ermənistan hakimiyyəti bölgədə kommunikasiyanın açılması, Türkiyə ilə münasibətlərin normallaşması fonunda Bakını qıcıqlandırmaqdan çəkinir. "Sülh müqaviləsi" ilə bağlı danışıqlarda Qarabağın "statusu"nun ümumiyyətlə müzakirə edilmədiyinə dair məlumatlar var. Paşinyan hakimiyyəti Xankəndidəki separatçıları Rusiyanın qucağına itələyir və bununla problemdən yaxasını qurtarmağa çalışır. Ermənistanın tərəf kimi bölgədən çıxmasının mümkün nəticələri nə ola bilər? Birincisi, Rusiya tərəfə çevrilə və rus sülhməramlılarının nəzarət etdiyi Azərbaycan ərazilərində Moskvanın təhlükəli senariləri, xüsusilə "etnik münaqişə" kartı davamlı risklər yarada bilər. İkincisi, Rusiya tərəf olsa da, bölgədə güc balansı ikinin birə - Bakı-Ankara və Moskva ilə dəyişir. Bu balans qarşısında ruslar anlaşmağa daha meyilli ola bilər. Sərhədlərin delimitasiya-demarkasiya prosesinin başa çatması Qarabağa tam nəzarət məsələsində də Bakının əlini gücləndirəcək amildir".

**İsmayıl**

# Kommunistlər səslərini iki dəfə artırıblar

## Rusların əhəmiyyətli hissəsi ölkədə sosial ədalətin bərpasının tərəfdarıdır



**İsmayıl Qocayev**

**Rusiyada sentyabrın 17-dən 19-dək keçirilən parlament və yerli idarəetmə orqanlarına seçkilərin tam nəticələri açıqlanıb. Rusiya Mərkəzi Seçki Komissiyasından bildirilib ki, seçicilərin 51 faizinin qatıldığı seçkidə "Vahid Rusiya" Partiyası Dövlət Dumasına seçkilərdə 49,82 faiz səs yığaraq qalib gəlib. İkinci yerdə isə Rusiya Federasiyası Kommunist Partiyası qərarlaşıb.**

Kommunistlər 18,93 faiz səs toplaya biliblər. Rusiya Liberal Demokrat Partiyası isə 7,55 faizlə üçüncü yerə yüksəlib. Beşliyə həmçinin "Ədalətli Rusiya" və "Yeni insanlar" partiyaları da düşüblər. 5 partiya baryeri aşaraq Dövlət Dumasına düşüb.

Seçkidə Kommunist Partiyasının topladığı səs müzakirələrə səbəb olub. Əvvəlki seçkidə də ikinci yerdə qərarlaşan kommunistlər budəfəki marafonda səs faizini xeyli artırmağa nail olub.

**Rusiyada kommunistlərin çoxalması faktını "Şərq"ə təhlil edən Azərbaycan Kommunist Partiyasının sədri Rauf Qurbanov şimal qonşumuzda kommunizmə meylin artmasının səbəblərini bu cür açıqlayıb.** Partiya rəhbəri deyib ki, hakim partiya müəyyən administrativ rıçaqlardan istifadə edərək öz səsini artırmağa nail olub: "Rusiyada Kommunist Partiyasına verilən səslər onu göstərir ki, rus ictimaiyyəti kapitalizmə, liberal quruluşa "yox" deyir. Rusların əhəmiyyətli hissəsi ölkədə sosial ədalətin bərpasının tərəfdarıdır. Bütün səmimiyyətimlə deyirəm ki, əgər Azərbaycanda düzgün sorğu keçirsələr, insanların əksər çoxluğu sosial-ədalətli cəmiyyətin qurulmasını istəyəcək. Nəzərə alaq ki, ölkəmizdə varlı təbəqə 10 faizdir, lap olsun 20 faiz. Amma zəhmətkeş, ziyalı, orta təbəqənin nümayəndələri çoxluq təşkil edir.

Rusiyada da vəziyyət belədir. Kommunistlərin seçkidə ikinci yerdə qərarlaşması normal qarşılanmalıdır. Bundan əvvəl Dumaya keçirilən seçkidə Rusiya kommunistləri 9.2 faiz səs toplamışdılar. Ötən dövr ərzində rus xalqı sosializm tərəfdarlarının və kommunistlərin hakimiyyətə gəlməsinin daha zəruri olduğunu qəbul ediblər. Ona görə də səs faizi iki dəfə artaraq, 9-dan 19-a çatıb. Baxmayaraq ki, Rusiyanın hakim dairələri kommunistlərin sosial bazasını azaltmaq məqsədilə müxtəlif partiyalar yaratdılar. Həmin partiyalar 1-2 faiz civarında səs yığdılar. Tam əminliklə deyirəm ki, saxtakarlıq olmasaydı, bu seçkidə kommunistlər ən azı 35-40 faiz səs toplayardı. Seçkidən əvvəl keçirilən rəy sorğuları bunu deməyə əsas verirdi".

*R.Qurbanov vurğulayıb ki, yaradılan süni əngəllər səs faizini mümkün qədər aşağı saldı:* "Hər halda indiki səs faizi kommunistlərin Dumada öz fraksiyasını möhkəmləndirməsinə imkan yaradır. Dumanın rəhbərliyində və komissiyalarda təmsil olunmalarına şərait yaradır. Hər şeydən əvvəl isə rus cəmiyyətində kommunistlərə marağın yüksəldiyini göstərir. Azərbaycan Kommunist Partiyasının sədri kimi Rusiya kommunistlərinin liderinə təbrik məktubu ünvanladım. Seçkidə xalqın dəstəyi ilə qazandıqları inamlı qələbəyə görə onları təbrik etdim".

# Ermənistanda barış tərəfdarları getdikcə artır

## Paşinyanın Ankaraya əməkdaşlıq çağırışı ölkəsində pozitiv qarşılanır



**Uzun müddətdir diplomatik əlaqələr olmadan yaşayan Türkiyə və Ermənistandan münasibətlərin normala dönməsi yönündə açıqlamalar gəlməkdədir. Artıq Türkiyə təyyarələri Bakıya Ermənistan üzərindən uçmağa başlayıb. Təhlilçilərə görə, bu hal iki ölkə arasında münasibətlərin normallaşmasına doğru müsbət əlamət sayıla bilər.**

Ermənistanın Baş naziri Nikol Paşinyan Türkiyə ilə "heç bir şərt olmadan" barışığa hazır olduğunu bildirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə deyib ki, əgər İrəvan bu addımı atmağa hazırdırsa, Ankara Ermənistan hökuməti ilə "münasibətləri tədricən normallaşdırmaq üçün işə başlaya bilər". Erməni mediasında Ermənistanın Türkiyə ilə yaxınlaşmaq cəhdi İrəvanın Ankara üzərindən Qərbə çıxış tapmaq istəyi ilə izah olunur. Paradoks olsa da, Nikol Paşinyan və onun komandası Türkiyəni Avropaya açılan pəncərə kimi görür. Məhz buna görə müharibədən dərhal sonra Paşinyanın komandasının aparıcı simaları Türkiyə ilə əməkdaşlığın qurulmasının və "qalib tərəflə dialoqun" zərurətindən danışmağa başlayıblar. Politoloq Binyamin Matevosyan Ermənistan-Türkiyə barışının Moskva üçün yüksək siyasi risklərin olduğunu deyib. Onun sözlərinə görə, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri nizamlanarsa, Rusiya ordusunun Qarabağda və Ermənistanda olması üçün heç bir rəsmi əsas qalmayacaq: "Nəticə olaraq, nə 102-ci bazaya, nə də sülhməramlılara ehtiyac olacaq".

Görünən odur ki, son dönəmlər Ermənistan cəmiyyətində Türkiyə və Azərbaycanla əməkdaşlıq olduqca həssas bir mövzu olaraq qalır. Bir çox siyasi bəyanatlarda Ermənistanla Türkiyənin mümkün yaxınlaşması "milli dəyərlərə" xəyanət kimi qəbul olunur. Digər tərəfdən bu addımın uzunmüddətli sülhə yol açacağı vurğulanır. Digər siyasi şərhçi Riçard Giraqosyanın sözlərinə görə, Paşinyanın bəyanatları Ermənistanda populyar olmasa da, "pozitivdir" və buna görə indi Türkiyənin necə bir addım atacağı gözlənilir: "Hər iki ölkənin sakinləri yeni münasibətlərin perspektivinə eyni zamanda "ümid və şübhə" ilə baxırlar". Ermənistan baş nazirinin mətbuat katibi Mane Gevorkyan isə bildirib ki, hazırda Ermənistan və Türkiyə rəsmi şəxsləri arasında heç bir əlaqə yoxdur. Lakin rəsmi İrəvan buna hazırdır: "Effektiv iş halında Ermənistan ən yüksək səviyyədə görüşlərə hazır olacaq".

*Türkiyədən faydalanmaq ermənilərə hava-su qədər lazımdır*

**Qərb Universitetinin professoru Fikrət Sadıqov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan məğlub tərəf kimi çox gözəl başa düşür ki, başqa çıxış yolu yoxdur.** Politoloq vurğulayıb ki, Paşinyan hökuməti fərqindədir ki, yaxın dönəmdə Türkiyə və Azərbaycanla münasibətləri bərpa etməsələr, ölkənin onsuz da bərbad durumda olan iqtisadiyyatı tam çökəcək: "Erməni cəmiyyətində sağlam düşüncəli insanlar və müəyyən siyasi dairələr bu reallığı başa düşürlər. Paşinyanla yanaşı, ictimaiyyətin bəzi nümayəndələri, ekspertlər də etiraf edirlər ki, ermənilərin xoşbəxt gələcəyi qonşularla normal münasibətdən keçir. Amma hələlik Paşinyanın pozitiv bəyanlarına birmənalı etibar etmək olmaz. Çünki baş nazirin ritorik açıqlamaları, bir-birinə zidd olan sərsəm bəyanatları hələ unudulmayıb. Baş nazirin sözləri əməldə özünü doğrultmalıdır. İlk təşəbbüsünü həyata keçirməyə başlasa, bunun arxası gələcək. Əslində məhz indiki məqamda İrəvan hökumətini yumşalmağa sövq edən amillər var. Azərbaycan Qarabağda sürətli quruculuq və bərpa işləri aparmaqla yanaşı, həm Türkiyə, həm Pakistanla hərbi təlimlər keçirir. Düşmənə və onun havadarlarına təsirli mesajlar verir. Ermənistan rəhbərliyi mesajı düzgün dəyərləndirməyi bacarmalıdır. İrəvanı dalana dirəyən məqam odur ki, Ermənistan zəruri anda himayədarı Rusiyadan dəstək ala bilmir. Moskvanın neytral mövqedə qalması, ermənilərə maddi yardımları azaltması mühüm təsiredici amillərdir. Güclü iqtisadiyyata malik olan Türkiyə ilə əməkdaşlıq Ermənistan üçün daha cəlbedici və vacibdir. Paşinyan yaxşı başa düşür ki, Türkiyədən faydalanmaq ermənilər üçün hava-su qədər önəmlidir".

**İsmayıl Qocayev**

# Amilinin xütbəsində tülkü amili



**Din bir tərəfə, siyasət də heyvan üzərində qurular? Ayətullah Seyid Həsən Amili xütbələrini daha heyvanlar üzərində qurur. Vallahi-billahi, maraqlı bir işdir. Görünür, islamın ən böyük mühafizəçisi müsəlman birliyindən, doğruluqdan, haqdan xütbə oxuyar. Amma Ayətullah statusu bu adama heç yaraşmır, mollabaşdır ki, mollabaş.**

Bu mollabaşı Seyid Həsənin ilk sərsəmləməsi deyil ki? Azərbaycan nə zaman ki, Qarabağ deyib torpaq bütünlüyü davasını önə çəkir, onda İran Amilidən amil kimi istifadə edib, önə çəkir. Əlinə hazır bir xütbə verib, oxutdurur.

Bu mollabaşı iki il əvvəl Cümə namazlarının birində qara libasını geri çəkib, qeyri-ciddiliyinə düzəliş etməyə çalışıb, hayqıra-hayqıra deyirdi: ”Açın sərhədi, gedək, Qarabağda döyüşək”. O hətta ölməyə də hazır idi. Həmin vaxt iranbaşlar bu fikri qəbul etməyənləri İsrailə işləməkdə günahlandırırdılar. Amma atalar misalı, ”yalan ayaq tutsa da yeriməz”. Görünür, Amilinin sözü də özü kimi topal imiş... Vaxt keçdi, Azərbaycan dostlarını yanında gördü, Ermənistandakı kafirlərin başına yumruq vurdu, amma bu qovğada Amili kimi İran amili də müsəlman tərəfə, xeyirin şər üzərində qələbəsində görünmədi. Qarabağda İranın köməyinə arxalanın, ermənilərin ”keçilməz səddi” də dağıldı, qələbə də, zəfər də qazanıldı. Amma əhli-müsəlmanlar İranı yanlarında deyil, başqa yerdə gördülər.

Seyid Əli Xameneyinin nümayəndəsi Qarabağın azadlığı uğrunda canından belə keçməyə hazır idisə, indi niyə təlimlərimizdən narahatdır? Kimsəyə, o cümlədən qara libaslı İrana da sirr deyil ki, qardaş dövlətlərlə birlikdə keçirdiyimiz hərbi hazırlıqlar İrana qarşı deyil, yenə də silah alıb tədarük görən ermənilərə bir mesajdır. Bizim kiminsə torpağında gözümüz yoxdur. Lakin Azərbaycanın və qardaşlarının istənilən vaxt torpaqlarının azadlığı uğrunda müharibəyə başlamaq iqtidarında olduğu aydındır. İndi Ağayi Amili bunu ”Şirin quyruğu ilə oynanması” kimi qiymətləndirir. Birincisi, əgər söhbət İrandan gedirsə, o dövlət şir filan deyil. Çünki şir qolunun gücünə inanır, hansısa fətvaya arxalanmır, ümid etmir. İkincisi, rəsmi Tehran özündən deyən dövlətdirsə, niyə İsraillə, Vaşinqtonla uzun illərdir höcətləşir, onları birdəfəlik məhv etmir?! Əlbəttə, gücü çatmır. İndi biz də güclənmişik. Baxmayaraq bizim güclü deyil, zəif olmağımızı istəyən İran mollabaşları duyur ki, artıq ox yaydan çıxıb. Hər bir işin üstü açılıb. İranın siyasəti qırx gün keçmədi ki, bəlli oldu, Ermənistana yenidən silah-sursat göndərməklə gücümüzün qarşısını almağa çalışır. O taylı-bu taylı Azərbaycanda, bir misal var, nəynən Alış? Alışı Amili ilə də əvəz etmək olar.

Mollanın belə radikal mövqeyi əslində həm də dini ekstremizmdir. Aydındır, belə bəyanatlar birinci dəfə deyil və bizi daha qorxu altında saxlamaq mümkünsüzdür. İndi qorxan Amili və onun kimi Azərbaycanın güclənməsini istəməyənlərdir. İran Azərbaycanın gücləndiyini gördükcə qıcıqlanır və narahatlığını belə axmaqlıqlarla büruzə verir. Ona görə İranın hərbi təlimlərə başlaması da, Amilinin sərsəm xütbə siyasəti də təsadüfi deyil. Bu, daxildəki narahatlığın, qorxunun, kinin və riyanın növbəti inikasıdır. Bir dövlət nə qədər xəbis olmalıdır ki, hansısa qonşusunun öz torpaqlarında keçirdiyi hərbi təlimlərdən təlaşa düşsün. Çünki torpaqlarımızın işğalında əlləri, iştirakları var. Ağıllı müsəlman camеəsi Seyid Həsən Amilidən soruşmaq istəyir: sizin o şiriniz niyə tülkülük edib, bizim müsəlman torpaqlarına qanunsuz girir, yük, o cümlədən silah daşıyır? Axı şir özünü ağır-ağayana aparar. Daha meymunluq etməz, quyruq bulamaz....

Ey müsəlmanlar, lütfən söyləyin, Seyid Həsən Amilinin ”Danabaş kəndinin əhvalatları”ndakından nə fərqi var? Onlar da cahil idi, bu da. Cahillik isə ən pis korluqdur. Baş verənləri nə qədər istəsən də görə bilmirsən. Belə ki, Azərbaycanın qalib dövlət olduğunu, öz torpaqlarını azad etdiyini, qardaşları ilə birlikdə hərbi qüdrətini artırdığını, demək olar, bütün dünya qəbul edir. İran dini nümayəndələrinin başlarına taxdığı çalma isə yəqin artıq gözlərinə düşüb. Bir azdan qulaqları da tutulsa, təəccüblənməyin...

*Mirzə Ələkbər Sabir yazırdı:* ”Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!”.

Bu iki misra İranın hazırkı mollabazlarının siyasətinin bariz ifadəsidir.

Əlqərəz, Amili özünün tülkü siyasətində heyvanat aləminə söykənir. Çünki elə isə qoy onlar əvvəlcə şir olmağı, özlərini şir kimi mərd, qeyrətli aparmağı bacarsınlar, ondan sonra qalan məsələlərə aydınlıq gələr. Hələlik isə islamın ali dəyərlərinə söykənməyən, ermənibaş mollaların davranışlarını ancaq tülkünün hərəkətləri ilə müqayisə etmək mümkündür. Biz həqiqəti və Tehrandan fərqli olaraq həqiqətləri danmırıq. Cabir Novruz demiş, tülkülərə tülkü, aslanlara aslan deyirik...

**İslam Ağayev**



# Müzakirələr başlayır

## Zahid Oruc: “Sosial şəbəkələrin statusunu dəqiq müəyyən etməliyik”

**Milli Məclisdə medianın və sosial şəbəkələrin mövcud durumu müzakirə olunacaq. Bu məsələ parlamentin İnsan hüquqları komitəsinin 2021-ci il payız sessiyası üçün iş planına daxil edilib. Qeyd edilib ki, sessiya müddətində Ombudsman və Medianın İnkişafı Agentliyinin iştirakı ilə ölkədə medianın, o cümlədən sosial şəbəkələrin mövcud durumu və yeni inkişaf strategiyası ilə bağlı müzakirə və dinləmələrin təşkili, diffamasiya ilə bağlı məsələlərin müzakirəsi həyata keçiriləcək.**

Eyni zamanda komitədə sessiya müddətində diffamasiya haqda qanunvericilik sahəsində dinləmələrin keçirilməsi də nəzərdə tutulub. Məlumat üçün bildirək ki, sosial şəbəkələrin tənzimlənməsi üçün dünyanın əksər ölkələrində çoxsaylı təkliflər irəli sürülüb, modellər təqdim edilib. Lakin modern dünya üçün uyğun olacaq vahid model formalaşmayıb. Ayrı-ayrı ölkələrdə, xüsusilə Çin, İran və digərlərində tətbiq edilən modellər sosial şəbəkələrin tənzimlənməsindən daha çox, onların fəaliyyətlərinin məhdudlaşdırılmasına yönəlib. Bu da mütərəqqi dünya tərəfindən məqbul sayılmayıb. Tənzimləməni demokratik prinsiplər çərçivəsində ehtiva edən təşəbbüslər isə Almaniyadan gəlib. Amma ”alman modelinin” özü də yarımçıq qalıb və sosial şəbəkələr üçün xarakterik olan problemləri tam əhatə etməyib. Struktur, yayım çevrəsi, məsuliyyət standartları barədə tam təsəvvür formalaşdırmayıb. Türkiyədə 2020-ci ildə qəbul edilən qanun daha əhatəli və mütərəqqi sayılır. Türk modeli sosial şəbəkələrin məhdudlaşdırılmasına deyil, standartların müəyyənləşdirilməsinə yönəlib. Lakin bu model də ideal hesab olunmur. Güman edilir ki, Azərbaycanda da yaxın dönəmdə dünya təcrübəsindən yararlanaraq, sosial şəbəkələrlə bağlı bütün məqamları əhatə edən yeni qanunvericilik təşəbbüsü ortaya çıxacaq.

**Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc ”Şərq”ə vurğulayıb ki, sosial şəbəkələr müasir informasiya kommunikasiyası dünyasında öncül yerdədir. Deputatın sözlərinə görə, feysbuk, tvitter və s. tipli platformalar yutubla müqayisədə bir qədər geri qalsa da, istər idarəetmə, istər siyasi və sosial həyatda gündəlik ünsiyyət platforması kimi alternativsizdir**: ”Dünya miqyasında bu fenomenlə rəqabət aparmaq faktiki olaraq qeyri-mümkündür. Sosial şəbəkələrin bəşəriyyətin həyatına daxil olması yalnız əlaqələri asanlaşdırmayıb, imkanları genişləndirməyib. Eyni zamanda idarəetmələr üzərində çox böyük təzyiqlər, ictimai təsirlər də yaradıb. Müxtəlif xarici dairələr çox asanlıqla istənilən ölkənin informasiya mühitinə düşür, orada hökmranlıq edə bilirlər. Bu vasitə ilə dövlətlərin içərisində arzuladıqları şəraiti formalaşdırırlar. Vətəndaş cəmiyyətlərini ayağa qaldırırlar, etnik-milli separatizmə səbəb olurlar və s. Bunlar reallıqdır, hansısa sovet yanaşması deyil. Digər məqam isə etik dəyərlərin kütləvi olaraq pozulmasına cəhd edilməsidir. Şəbəkə içərisində elə mühit formalaşıb ki, orada milli ənənələr, cəmiyyətləri ayaqda saxlayan mənəvi prinsiplər qoruna bilmir. Əksinə, bu dəyərləri devolvasiyaya uğradacaq siyasət yürüdülür. Ona görə də Avropa ölkələrində bir sıra tənzimləyici addımlar atıblar”.

> “Əminik ki, kimsə süngüsünü götürüb parlament üzvlərinin üzərinə hücum çəkməyəcək. Çünki burada qəti şəkildə hansısa senzuradan, basqıdan, şəbəkələrin cilovlanmasından söhbət getmir”

**Z.Oruc qeyd edib ki, Qərb ölkələrində cəmiyyətlərin keçdiyi yol, inkişaf səviyyəsi elə bir durum formalaşdırıb ki, orada siyasiləşmiş sosial şəbəkə mühiti bizdən çox fərqlidir:** ”Bu, əsla hamının üzərinə total nəzarət qoymaq, buxovlama tədbirləri həyata keçirmək anlamına gəlmir. Sosial şəbəkələrin statusunu dəqiq müəyyən etməliyik. KİV, media quruluşu olub-olmamasını aydınlaşdırmalıyıq. Media qurumlarının fəaliyyətləri hüquqi platformaya dayanır. Sosial şəbəkə isə hələ də tənzimlənməmiş qalmaqdadır. Bizə Komitə üzvlərindən, kənar ictimai-siyasi fəallardan, şəbəkə istifadəçilərindən müraciətlər edilir. Hesab edilir ki, baxışları vahidləşdirməyə, bir-biri ilə uzlaşdırmağa, daha düzgün, obyektiv yekuna gəlməyə ehtiyac var. Bu yöndə səriştəli müzakirələr reallığı dəqiq görməyə imkan verəcək. Həm də müvafiq addımların atılmasını əsaslandıracaq”.

*Milli Məclis üzvü bildirib ki, media sahəsində bütün strukturların sosial şəbəkə hesabları var və onlar fikir, söz azadlığının ayrılmaz tərkib hissəsinə çevrilib:* ”Normal, hüquqi cəmiyyət qurmaq üçün bütün qüvvələrin üzərinə öhdəliklər düşür. Kimsə özünü kənarda qoymamalıdır. Həmin fəaliyyət sahəsi müxalifətin, mərkəzçi qüvvələrin, dindar kəsimin, o cümlədən ateistlərin də maraqlarını bu və ya digər formada əhatə edir. O baxımdan bu sferanı müəyyən qədər diqqət mərkəzində saxlamaq lazımdır. Məsələnin Komitədə müzakirəsinə qərar verərkən məhz bu amilləri nəzərə almışıq. Əminik ki, kimsə süngüsünü götürüb parlament üzvlərinin üzərinə hücum çəkməyəcək. Çünki burada qəti şəkildə hansısa senzuradan, basqıdan, şəbəkələrin cilovlanmasından söhbət getmir. Sadəcə olaraq dünya praktikasına uyğun tənzimləyici addımlar atılmalıdır”.

**İsmayıl Qocayev**

**İşğaldan azad edilmiş ərazilərdə heyvandarlığın inkişafı ölkədə ət və süd məhsullarının qiymətlərinin aşağı düşməsinə şərait yaradacaq. Bunu Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin bu məhsullara olan tələbatının ödənilməsi dövlətin qarşısında duran başlıca məsələlərdən biridir.**



# Ətin qiyməti tezliklə ucuzlaşmayacaq

## Biz hələ də xaricdən ət alırıq, ən çox da Gürcüstandan

**Aynurə Pənahqızı**

O vurğulayıb ki, heyvandarlıq üçün böyük potensiala malik olan ərazilərimizin işğaldan azad edilməsi bu sahənin inkişafına geniş perspektivlər açır: ”Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan işğaldan əvvəl heyvandarlığın inkişafı ilə seçilən rayonlar kimi tanınıb. Bu ərazilərin təbii şəraiti, bol yem ehtiyatlarına malik olması, digər tərəfdən insanların bu sahəyə olan marağı onu deməyə əsas verir ki, minalar təmizləndikdən, əhalinin yaşaması üçün təhlükəsizlik təmin edildikdən sonra bu rayonlarda heyvandarlıq sürətlə inkişaf edəcək”. T.Rzayev vurğulayıb ki, bununla əlaqədar müəyyən layihələr hazırlanıb və tədbirlər planlaşdırılır: ”Bu tədbirlər sözsüz ki, ət və süd məhsullarının qiymətinin aşağı düşməsinə, idxalın azalmasına və yerli məhsulların keyfiyyətinin yaxşılaşmasına səbəb olacaq. Dağlıq ərazilərdə bəslənilən, təbii yemlə qidalanan heyvanların əti, südü əlbəttə ki, başqalarından fərqlidir. Artıq bəzi fermerlər işğaldan azad edilmiş ərazilərdə yaylaqlara köç edib. Dövlətin sahibkarlara verdiyi imtiyazlar, göstərilən diqqət və qayğı nəticəsində tez bir zamanda həmin ərazilərdə iri heyvandarlıq təsərrüfatları yaradılacaq, əhalinin ət və süd məhsullarına olan tələbatı daha yaxşı ödəniləcək”.

**Mövzu ilə bağlı danışan iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərimizin Azərbaycan iqtisadiyyatına, o cümlədən də kənd təsərrüfatına böyük töhfə verəcəyi danılmazdır.** İqtisadçı qeyd edib ki, işğaldan azad olunmuş ərazilərimizdə həm əkinçiliyin, həm də maldarlığın inkişafı üçün kifayət qədər yaxşı şərait var: ”Bu ərazilərdə ən əsası suvarma problemi yoxdur və yem bazası üçün çox əlverişli torpaqlardır. Sadəcə burada infrastrukturun qurulması və həmin bölgələrdə iribuynuzlu və xırdabuynuzlu maldarlığın inkişafı xeyli zaman alacaq. Yəni ilk növbədə onların inkişafı üçün kifayət qədər zamana ehtiyac var. İkincisi, həmin bölgələrdə erməni işğalçıları kifayət qədər çoxlu sayda minalar basdırıb. Təbii ki, həmin ərazilərin minalardan təmizlənməsi vacibdir ki, burda da zamana ehtiyac var. Orda təhlükəsizliklə bağlı problemlər həll olunduqdan sonra təbii ki, maldarlığın inkişafı üçün kifayət qədər münbit şərait yaranacaq. Amma bu o demək deyil ki, tezliklə ciddi ucuzlaşma baş verə bilər. Bu proses təbii ki, addım-addım gedəcək. Digər bir məsələ var ki, biz hələ də xaricdən ət alırıq, ən çox da son zamanlar Gürcüstandan. Ola bilər ki, bu bölgələr sayəsində heyvandarlığın inkişafının ilkin mərhələsində xaricdən ətə olan ehtiyac qalmasın. Yəni ilkin mərhələdə öz resurslarımız hesabına ehtiyacımızı tam ödəyə bilərik. Sonrakı mərhələdə, əgər məhsuldarlıq yüksək olarsa, o zaman həmin bölgələrdə iri və xırdabuynuzlu mal-qaranın inkişafı üçün kifayət qədər ciddi imkanlar və fürsətlər yaranacaq. Bunun sayəsində də bir neçə ildən sonra Azərbaycanda ət və süd məhsullarının ucuzlaşması mümkün ola bilər”.

> “İnfrastruktur qurulduqdan sonra Qarabağda maldarlığın inkişafı üçün kifayət qədər münbit şərait yaranacaq”

# Mina məsələsi ilə könlümüzü almaq istəyirlər

## Ancaq bütün hallarda Fransa siyasətində dəyişiklik etməyəcək

**Yeganə Bayramova**

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb. ANAMA-dan verilən xəbərə görə, görüş zamanı işğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları barədə fikir mübadiləsi aparılıb.**



Səfərin başlıca məqsədi Fransa Respublikasının Azərbaycanda icra edilən minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyinin ayrılması və bu sahədə dəstəyin istiqamətləri müzakirə olunub.

Yaxın gələcəkdə iki tərəf arasında minatəmizləmə əməliyyatlarına dəstək, eləcə də minadan zərərçəkənlərə yardım, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə layihələri kimi sahələri özündə əks etdirən sənədin imzalanması nəzərdə tutulur.

**Fransanın radikal mövqedə olduğu halda birdən-birə siyasətindəki bu dəyişikliyin səbəbini ”Şərq”ə açıqlayan Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə bildirib ki, bu ölkə hər zaman Ermənistana dəstək verib:** ”Fransa hökuməti və parlamentinin ermənipərəst mövqeyi onların münaqişənin həllində mənfi mövqedə olduğunu göstərib. Bu mövqe hazırda Fransanın həm iqtisadi maraqlarına, həm də Fransa şirkətlərinə böyük zərbə vurub.

Ona görə də onlar hansısa formada çalışırlar ki, balansı bərpa etsinlər, Azərbaycanla münasibətləri yaxşılaşdırsınlar.

Ancaq Fransanın bölgədə hansısa formada iştirakı qəbuledilməzdir. Mina təmizlənməsi ilə bağlı humanitar dəstək göstərmək istəyirlərsə, müsbət haldır. Lakin bu, Fransanın siyasətində dəyişikliyi təsdiq edən amil deyil”.

# "İlk dəfə idi Şuşada olurdum"

## Nizami Cəfərov: "Çəkinmədən deyirəm ki, Şuşanın simvollarından biri də Vaqifdir"



"Bəzi insanlar cəmiyyət yaradır, qurum yaradır, yaradıcılıqdan kənar hansısa işlə məşğul olurlar. Bunlar mənim işim deyil. Bu cür işlər mənə uğurlu görünmür. Amma bir yazım, bir məqaləm nəşr olunanda ondan zövq alıram. Sanki dağı dağ üstə qoymuşam"

Söhbəti aparır: Məlahət Rzayeva

**Bakı Dövlət Universitetinə ayaq basdığımız ilk gündən Nizami müəllimi açıq fikirli, demokratik düşüncəli şəxs kimi tanıdıq və sevdik. 1994-cü ildə Nizami Cəfərov Filologiya fakültəsinin dekanı təyin edildi. BDU-nun mayasının demokratiya ilə yoğrulduğu zatən bəllidir. Bu ali məktəb ab-havasına görə hər zaman digərlərindən müsbət mənada seçilib. Tələbələrə dost kimi yanaşan, bacardıqca daha çox - hətta semestr imtahanlarını belə bir qədər də öyrətmək üçün fürsət bilən müəllimləri ilə də həmçinin.**

Yaxşı müəllim odur ki, son dəqiqəyədək tələbəyə nəsə öyrətsin. "Bilmirsən, "2", deyib kəndiri kəsməsin. Nizami müəllim belə müəllimlərdəndi. Onun leksiyaları yadda qalan idi. Türk yazılı abidələri, "Kitabi Dədə-Qorqud", "Bilqamıs" dastanlarından su axar kimi danışırdı. Kabinetində də Mirzə Kazım bəyin böyük portreti vardı. Haqq edir, təbii ki, Mirzə Kazım bəy bu hörməti. Nizami müəllim də həmçinin. Dünən onun ad günü idi. 62 yaşı tamam olurdu. Söhbət etdik, Şuşadan, Molla Pənah Vaqifdən danışdı - Azərbaycanda Atatürk Mərkəzinin direktoru, professor, **Əməkdar elm xadimi, millət vəkili Nizami Cəfərov.**

**- Nizami müəllim, son zamanlar telefon zənglərinə cavab vermirsiniz, sizi tapa bilmirik...**

- Rayonda oldum, xaricə getdim... Bir az dincəlməyə ehtiyacım vardı.

**- Səhhətinizlə bağlı problem yoxdu ki?**

- Yox. Sadəcə, yayda şəhərdən çıxmaq lazımdı da.

**- Biz sizi yaydan qabaq tapa bilmirik...**

- 1-2 yazı vardı, onlarla məşğul oldum, bəzi kitablar vardı, onların üzərində işlədim, qaydaya saldım. Yəni görünməməyim işlə bağlı olub, başqa səbəb yoxdu. Pandemiya da görüşləri məhdudlaşdırdı. Çox ünsiyyətə girmək olmur. Onlayn görüşlər, toplantılar keçirilir, onda da telefonları açmaq mümkün deyil. Pandemiya elədir ki, insan bir az ehtiyatlanır. Psixoloji özünümüdafiə instinkti yaranır insanda. Əvvəllər dostlarla necə görüşürdük? Ürəklə, əl-ələ verirdik, qucaqlaşırdıq. İndi bu, daha mümkün deyil. Özündən də ehtiyatlanırsan, dostlar üçün də narahat olursan. Deputat kimi də borcunu yerinə yetirməlisən. Bir iş yaxşıdı ki, daha telefonla əlaqə saxlamaq asandır. Zəng edib problemlərini deyirlər. Vaqif Poeziya Günləri də çox möhtəşəm keçdi...

**- Getmişdiniz Şuşaya?**

- Bəli, getmişdim. Vaqif Poeziya Günləri həyatımızın ən dəyərli anları idi.

**- Bundan öncə olmuşdunuz Şuşada?**

- Yox. Olmamışdım. Birinci dəfəydi getdim.

**- Necə təsir bağışladı?**

- Çox gözəl. Şuşada nəhəng işlər görülür. "Zəfər yolu" çəkilir. Şuşa qələbəmizin paytaxtıdır da!..

**- Deməli, "Xarı bülbül" festivalında olmamışdınız.**

- Yox. O daha çox musiqi bayramıydı. İncəsənət adamları getmişdi. Amma Vaqif Poeziya Günləri ədəbiyyat bayramı oldu. Bilirsiniz də, mən Vaqifin tədqiqatçısıyam. Bəzən düşünürəm ki, görəsən, Vaqif həmin dövrdə başqa bir yerdə yaşasaydı bu qədər məşhurlaşardımı? Şuşa o zaman xanlığın mərkəzi idi, Vaqif də baş vəzir. Yəni dövlət adamı. Vaqif Şuşaya qədər möhtəşəm poeziya nümunələri yaradıb. Amma Şuşa dövrü xüsusidir. Dövlət xadimi kimi hadisələrin mərkəzində olması, başına gələn faciələr. Çəkinmədən deyirəm ki, Şuşanın simvollarından biri də Vaqifdir.

**- Nizami müəllim, bir neçə gün əvvəl Sabir bəylə *(Sabir Rüstəmxanlı - red.)* danışdıq, Mədəniyyət naziri Anar Kərimov Özbəkistan səfəri zamanı Şuşanın 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı olması təklifini irəli sürmüşdü, Sabir bəyin fikrini öyrənirdik. Sabir bəy izah verdi və dedi ki, Şuşa dünya mədəniyyətinə dahilər bəxş edib, adları sadaladı və təbii ki, Molla Pənah Vaqifin də adını çəkdi. Materialı hazırlayanda birdən "ağlıma gəldi" ki, axı Vaqif şuşalı deyil, qazaxlıdır... Məlum məsələdi, Şuşa Vaqifin həyatının xüsusi dövrüdür. Amma yenə də...**

- "Qarabağnamə"də mütləq xatırlanır ki, İbrahim Xan qazaxlı Vaqifə xüsusi rəğbət bəsləyirdi. Yəni bura onun Vətəni xatırlanır. Vaqif Şuşaya gələndə artıq yetişmiş şəxs idi, tanınan şair idi. Özünün də belə bir şeiri var:

**Çıxıb başmaq seyrinə,**
**Edib seyri-çəmən gəzdim.**
**Ordan da bir Qazaxa gəldim,**
**Gördüm Vətən gəldim.**

Yəni Vaqif Vətəninin Qazax olduğunu yazıb. Nə Vaqif Qazaxı unudub, nə də qazaxlılar onu. Amma təbii ki, Şuşanı Vaqifsiz təsəvvür etmək olmur. Gərək hər ikisini də xatırlayaq.

**- "Qarabağnamə"ni xatırlatdınız. Nə yaxşı ki, "Qarabağnamə" yazılıb. Məsələn, farslar Nizaminin fars şairi olduğunu "iddia" edir. Amma bizim nizamişünaslar, elə digər alimlərimiz, ziyalılarımız Nizaminin öz əsərlərindən nümunə çəkməklə iddiaların əsassızlığını sübut edirlər.**

- Yazılı mənbələrin olması böyük üstünlükdür. Bütün cəmiyyətlərin tarixi var, istər yazılsın, istər yazılmasın. Amma yazılı mənbəsi olmayan xalqa tarixsiz xalq deyirlər. Ona görə də yazılı mənbələr bütün zamanlarda dəyərli olub. Vaqifin əlyazmalarını yandırıblar, evini dağıdıblar, məlum hadisələrdən sonra. Belə bir dahi şairin öz qələmindən çıxmış bir dənə də yazılı şeiri yoxdu. Vaqifin şeirləri dildən-dilə, ağızdan-ağıza keçmədir.

**- Nizami müəllim, dediniz ilk dəfəydi Şuşaya gedirdiniz. Maraqlıdır, Şuşa nə qədər ki, işğal altında idi, hansı düşüncələriniz vardı, Şuşa azad edildi, düşüncələrinizdə nə kimi yenilik oldu?**

- 1970-80-ci illərdə Şuşadan tələbə yoldaşlarımız vardı. Danışırdılar Şuşadan. Gözəlliyindən, havasından... Amma o zaman Şuşa bizim üçün, mənim üçün Azərbaycanın digər ərazilərindən biri kimi idi. Şuşaya qarşı xüsusi bir istək yox idi. Bu xüsusi istəyi ermənilər yaratdı. Elə başa düşülməsin ki, mən ermənilər Şuşanı işğal etdi, bundan sonra biz onun dəyərini bildik, sevdik demək istəyirəm. Əsla. Xüsusi istək deyəndə, xüsusi diqqəti nəzərdə tuturam. Erməni mətbuatı yazırdı ki, Şuşa "erməni şəhəridir". Bu bizi qıcıqlandırırdı və buna qarşılıq olaraq biz də yazmağa başlayırdıq, araşdırmalar böyüyürdü. Ermənilər "Şuşa bizimdir" deyirdi, bu bizi ağrıdırdı. İnsan da adətən ağrıyan yerə diqqət göstərir. Ağrının kəsilməsinə, ağrıyan yerin sağalmasına çalışır. Şükür ki, Şuşanın azadlığı ilə ağrımız bitdi, ağrıyan tərəfimiz sağaldı. Fikir verin, bizimkilər köçkün düşəndə heç yeri yandırmayıblar, dağıtmayıblar. Çıxıb gəliblər, o fikirlə ki, mütləq geri qayıdacaqlar. Vətəndir axı. Amma ermənilər hər yeri dağıdıb, yandırıb. Bunu necə təsəvvür etmək olar ki, bir müəllim məktəbi yandırsın?! Erməni müəllim bunu da etdi. Çünki Vətənləri deyil axı. Vətənləri olsaydı daşının, torpağının qədrini bilərdilər, əlləri gəlməzdi dağıdıb yandırmağa, yağmalamağa.

"Pandemiya elədir ki, insan bir az ehtiyatlanır. Psixoloji özünümüdafiə instinkti yaranır insanda. Əvvəllər dostlarla necə görüşürdük? Ürəklə, əl-ələ verirdik, qucaqlaşırdıq. İndi bu, daha mümkün deyil"

**- Şuşaya səfər edib gələnlər havasından danışır və deyirlər ki, orda adam yorulmur...**

- Elədi. Şuşanın havası gözəldi, yüngüldü. İndi bir az su problemi var. Cıdır düzündə otlar saralmışdı. Dostumuz Vaqif Bəhmənli dedi ki, Cıdır düzündə ot dizə çıxardı...

**- Nizami müəllim, 62 yaşınız tamam olur. Çox geri qayıtmağa vaxt olmaz yəqin ki, amma deyə bilərsiniz, son 10 ildə həyatınızda əlamətdar hadisə, əlamətdar gün nə zaman olub?**

- Mənim üçün birinci dərəcəli odur ki, özümü mühakimə edəndə "nə yazdım", "nə etdim" sualına cavab tapa bilim. Bəzi insanlar cəmiyyət yaradır, qurum yaradır, yaradıcılıqdan kənar hansısa işlə məşğul olurlar. Bunlar mənim işim deyil. Bu cür işlər mənə uğurlu görünmür. Amma bir yazım, bir məqaləm nəşr olunanda ondan zövq alıram. Sanki dağı dağ üstə qoymuşam. Bilirəm, bizim sahə - dilçilik hansı səviyyədədir, nələrə ehtiyac var, bu sahədə bir iş görüləndə mənə ləzzət edir. Razı qalıram. Özümü rahat hiss edirəm. Ad günləri ilə bağlı isə, məsələn, 50 yaşımda Dilçilik İnstitutunda böyük tədbir keçirildi, mənim üçün çox xoş, unudulmaz oldu ki, müəllimim Ağamusa Axundov tədbirə aparıcılıq etdi, çıxış etdi. 60 yaşımda isə cənab Prezident məni "Şərəf" ordeni ilə təltif etdi.

**- Şuşaya qayıdıram, Nizami müəllim. Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olacağı ilə bağlı da fikrinizi alım.**

- Ən böyük addım o oldu ki, cənab Prezident İlham Əliyev Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olacağının bizim üçün önəmi odur ki, biz Şuşanı türk coğrafiyasında da tanıtmalıyıq. Çünki bilməyənlər də var. Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olması informasiya mənbəyi kimi dəyərlidir, vacibdir. Dünya bilməli və görməlidir ki, Şuşa Azərbaycandır. Bir də içimizdə yanğı da var axı. Şuşasız illərin yanğısı. Ermənilər öz güclərinə almayıb Şuşanı. Ermənilər Şuşanın bir məhəlləsini də ala bilməzdilər. Cənab Prezident də tam doğru və zamanında dedi ki, Rusiya imperiyası müqaviləni İbrahim Xanla bağlayıb, ermənilərlə yox. Bir dövlət başçısının, Prezidentin bu sözləri deməsinin təsiri istənilən başqa birisinin sözündən qüvvətlidir, güclüdür. Və təsirlidir.

# "Yersiz hədə-qorxunun heç bir mənası yoxdur"

## "İranın 1970-ci illərdən qalma dəmir-dümürlərini Araz çayının qırağında bizə göstərməkləri bir işə yaramayacaq"



**Fərəc Quliyev:**

**İran Azərbaycan ilə sərhəddə, Culfa-Aslandüz-Muğan istiqamətində hərbi təlimlərə start verir. Təlim ilə bağlı SEPAH tərəfindən hərbi silahlar və texnikanın daşınması davam edir. Hərbi təchizatlar arasında İran istehsalı olan "Tufan" zirehli hərb maşını da gözə dəyib.**

Qeyd edək ki, Azərbaycan-Türkiyə, Azərbaycan-Türkiyə-Pakistan birgə hərbi təlimindən və Gorus-Qafan yolundakı məlum insidentdən sonra İran Azərbaycanla sərhəddə hərbi təlim keçirməyə qərar verib.

**Media və ictimaiyyətin diqqət mərkəzində olan proseslər barədə "Şərq"ə açıqlama verən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyevin sözlərinə görə, son zamanlar İranın bizə qarşı fəallaşması elə bir vəziyyətə səbəb oldu ki, artıq bu dövlətin iç üzünü ölkəmizdə bilməyən qalmadı:** "Azərbaycan öz əraziləri daxilində konstitutsiyasına və beynəlxalq qanunlara uyğun olaraq davranışlar nümayiş etdirir. Bu, İranın xoşuna gəlir, ya yox, bizi maraqlandırmır. Gorus-Qafan yolunda yoxlamalar aparmaq haqqımızdır. İran isə müharibə zamanı Ermənistana açıq dəstək verdi, xeyli silah-sursat göndərdilər. Müharibədən əvvəlki dönəmdə də işğalda olan torpaqlarımızda talançılıq işləri ilə məşğul olublar. İndi isə adekvat tədbirlər görürük və bunun üçün bizə əzələ nümayiş etdirməyə dəyməz. İranın 1970-ci illərdən qalma dəmir-dümürlərini Araz çayının qırağında bizə göstərməkləri bir işə yaramayacaq. Ağıllarından başqa şey keçərsə, Azadlıq meydanımıza boylansınlar, orada ən qüdrətli dövlətlərin S-300 və digər böyük hərbi texnikaları var. İstənilən dövlət bizə qarşı əzələ nümayiş etdirməyə cəhd etsə, həmin texnikalarımızı işə salarıq. Ona görə də yersiz hədə-qorxunun heç bir mənası yoxdur. İran bir zamanlar bəyanat vermişdi ki, sərhədlərində ordu toplanması onları narahat edir, Ermənistanın sərhədlərindəki gərginlik onların qırmızı xəttidir. 30 il idi ki, Azərbaycan əraziləri işğal altında idi və İrana həmin qırmızı xətt görünmədi. Hesab edirəm ki, İranın qarşısında 30 il əvvəlki Azərbaycan yoxdur ki, bizə qarşı çıxsınlar. "Quyruqları" göründü və bilindi ki, nə işlərlə məşğuldurlar".

**F.Quliyev qeyd edib ki, İran öz siyasətinə yenidən baxmalı, Azərbaycana qarşı ədalətsiz davranışlarına son qoymalıdırlar:**

"Eyni zamanda ərazilərimizə narkotiklərin göndərilməsinə, məmurlarının "şirin quyruğu" kimi yersiz bəyanatlarını aradan qaldırmalıdırlar. Azərbaycanın Türkiyə və Pakistan kimi strateji müttəfiqləri var. Özünü böyük adlandıran istənilən gücün bizə meydan oxumasına icazə verməyəcəyik. Bunu birmənalı şəkildə dərk etməlidirlər!".

**Yeganə Bayramova**

# Tehranın yanlış siyasəti...

## Molla rejimi Ermənistana yük daşımaqla xislətini ortaya qoyur

İsmayıl Qocayev

**İrandan gələn TIR-ların Gorus-Qafan yolunun Azərbaycan ərazisinə düşən hissəsindən yan keçməklə Ermənistana yük daşıdığını əks etdirən video-görüntülər yayılıb. Erməni sosial şəbəkə istifadəçiləri dolambac və sərt döngələrdə İran yük maşınlarının ciddi problemlər və təhlükələrlə üzləşdiyini, buna baxmayaraq, sisternlər və böyük yük maşınları ilə daşımaları davam etdirdiyini qeyd ediblər.**



Gorus-Qafan yolundakı Azərbaycan postu İran yük maşınlarından tranzit haqqı alır və bu, o yüklər üçün o qədər də böyük məbləğ sayılmır. Necə olur ki, TIR-lar 100-150 dollara tranzit ödəməmək üçün ən təhlükəli yoldan istifadə edirlər? Nəzərə alaq ki, həmin yoldan istifadə edən ağır yük maşınları tranzit pulundan daha çox xərcə düşürlər. Məlumata görə, təhlükəli yolda artıq 3 İran TIR-ı qəzaya uğrayıb və ölüm baş verib. İrandan gələn yük maşınlarının sadəcə 100 dollar tranzit haqqına görə bu qədər təhlükəni, ölüm riskini gözə alması mübahisəlidir. Deməli, maşınlarda daşınan yüklər heç də humanitar vasitələr deyil. Onlar təhlükəli yolları qət etməklə daşıdıqları yüklərin gizli qalmasını təmin edirlər.

Qeyd edək ki, İranın Azərbaycanla sərhəddə, xüsusulə də indiki həssas məqamda, Ermənistanın revanşist iddialarının dalana dirəndiyi və İrəvandan yalvarış mesajlarının səsləndiyi bir zamanda təlimlər keçirməsini də məğlub ölkəyə dəstək kimi qiymətləndirmək olar. Təbii ki, bu addım Azərbaycana dost olmayan münasibətin göstəricisi sayılır. Doğrudur, İran beynəlxalq təcrübəyə uyğun olaraq, Azərbaycanla sərhədyanı ərazilərdə keçirilən hərbi təlimlərlə bağlı rəsmi Bakını məlumatlandırıb və bəyan edib ki, təlimlər ölkəmizə qarşı deyil. Lakin İranın bəzi dini-siyasi dairələri, həmçinin sosial şəbəkələrdəki anti-Azərbaycan qrupları tərəfindən səsləndirilən fikirlər, aparılan təbliğat bunun əksini sübuta yetirir. Əgər İranın bu təlimləri Gorus-Qafan yolunda baş verənlərə emosional reaksiyadırsa, o zaman belə anlaşılır ki, indiyə kimi qanunsuz yük daşımaları məhz Tehranın tapşırığı və istəyi ilə həyata keçirilib. Nəzərə alaq ki, İran Azərbaycan torpaqlarının işğal altında olduğu zaman kəsiyində bircə dəfə də olsun, Ermənistana qarşı təzyiq xarakterli addım atmayıb. Əksinə, bu ölkənin mümkün qədər daha çox dirəniş göstərməsinə, Azərbaycanın isə bir dövlət kimi zəifləməsinə səy göstərib. Əksər hallarda ölkəmizə qarşı nümayiş etdirilən qəzəbin əsasında da bu "iqtidarsızlıq" dayanır.

"Dünya dəyişir, İran da zamanla dəyişməyə məcbur qalacaq..."

**İranın rəsmi Bakıya qarşı sərgilədiyi münasibəti "Şərq"ə dəyərləndirən Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib ki, molla rejimi elə əvvəldən Azərbaycana qarşı qərəzli mövqe sərgiləyib. Partiya rəhbəri qeyd edib ki, Tehran hökuməti hər vasitə ilə Ermənistana dəstək verib, yardım göstərib:** "İran 44 günlük Vətən müharibəsi dövründə açıq-aşkar şəkildə Ermənistanın yanında durdu. Müharibədən sonrakı müddətdə də hər vasitə ilə ermənilərə yardımı davam etdirdi. Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik nümayiş sərgilədi. Ancaq rəsmi Bakının və ölkə ictimaiyyətinin haqlı etirazı və qərarlı addımları ilə üzləşdi. İndi də Arazın o tayında hərbi təlim keçirərək ölkəmizə təzyiq göstərməyə çalışır. Azərbaycanın Türkiyə və Pakitanla birgə hərbi təlim keçirməsi İran molla rejimini qıcıqlandırır".

**E.Musayev vurğulayıb ki, İranın Azərbaycana yönəlik səhv siyasəti onu təcrid vəziyyətinə salır:** "İran bu cür təxribatçı davranışı ilə heç nəyə nail ola bilməyəcək. Nə qədər ki, molla rejimi hakimiyyətdədir, İranın ölkəmizə münasibətinin dəyişəcəyini gözləmək sadəlövhlük olardı. Amma dünya dəyişir, İran da zamanla dəyişməyə məcbur qalacaq. İranda yaşayan soydaşlarımız da molla rejiminin zülmündən xilas olacaqlar".

# "Kitabların səyyar satışı milli biabırçılıqdır"

## Aqşin Yenisey: "Kitab kimi, kino kimi dünyaya milyonlar qazandıran sənət janrları Azərbaycanda küçələrdə tüfeyli həyat yaşayır"



**Budəfəki müsahibimiz Türkiyədə yaşayan tanınmış şair-publisist Aqşin Yeniseydir. Şairlə 44 günlük Vətən savaşı, qazandığımız Zəfərin ədəbiyyatda əks olunması, son zamanlar ədəbiyyatımızda baş verən proseslər, Azərbaycan və Türkiyə ədəbiyyatı arasında analoji və differensial məsələlər ətrafında fikir mübadiləsi apardıq.**

*"Şərq" müsahibəni təqdim edir:*

**- Torpaqlarımız işğaldan azad edildi. Hətta yazıçıların bir qisminin Şuşaya səfəri baş tutdu. Necə düşünürsüz, zəfərimizlə bağlı dünya ilə dialoqa girəcək bir əsər yazıldımı?**

- Bu cür əsərin və ya əsərlərin yazılması vaxt, pul və zəhmət tələb edən məsələdir. Homer Troya müharibəsi haqqında yazanda bu müharibənin üstündən təxminən üç yüz il vaxt keçmişdi. Yaxud Tolstoy "Hərb və Sülh" romanını yazarkən fayton tutub Borodino çölünə baxmağa gedəndə bu döyüşün baş verdiyi günlərdən 57 il ötmüşdü. Ola bilsin ki, gözdən tük qapan bəzi yazarlarımızın artıq əlinin altında hazır "əsərlər" var. Amma bu cür tarixi hadisələr bədii-estetik dəyər qazanmaq üçün zaman tərəfindən mütləq zorlanmalı, əhliləşdirilməlidir. İş boş pafosa qalsa, hər həftə milli bir "Hərb və Sülh" yazmaq olar.

**- Bəzən belə fikirlər səsləndirilir ki, yazıçıların Şuşaya səfəri sadəcə epizodik xarakter daşıdı. Yəni səfər Şuşaya getmək, şəkil çəkdirib sosial şəbəkələrə qoymaqla sonlandı. Sizcə də belədirmi?**

- Bu cür mədəni mühiti əhatə edən inzibati tədbirlər daha çox cəmiyyət həyatının canlandırılması baxımından vacibdir. Amma protokol qaydalarından sənət əsəri gözləmək sadəlövhlük olardı. Belə səfərlərin ən əhəmiyyətli tərəfi o yerlər haqqında əsər yazacaq olan şair və yazıçıların yazacaqları coğrafiyanı, orada baş verənləri yaxından görmələridir. Məsələn, Şərif Ağayarın Laçından yazdığı reportajda bir epizod var idi: dağılmış kənddə sahibsiz qalmış itə çörək atırlar, it ilk çörək qırığını aparıb gizləyir və yenidən çörək dalınca gəlir. Müharibə, ümidsizlik, ac qalmaq qorxusu iti belə müdrikləşdirir, dramatikləşdirir. Bu cür amansız səhnəni təxəyyül gücünə uydurmaq olmaz, onu ancaq həyatdan əkişdirmək olar. Yaxud Herman Hesse psixiatr dostu və həkimi Yunqun məsləhəti ilə 1910-1914-cü illər arasında Hindistanda səfərdə oldu. Məşhur "Siddhartha" romanını da Hindistan mədəniyyətini, mistikasını yaxından və şəxsən tanımağın nəticəsi olaraq yazdı. Bizim nisbətən yaşlı yazıçılar sovet vaxtı roman yazmaq üçün Yessentukiyə gedirdilər, indi də Qax rayonuna filana gedirlər. Nəticədə ortaya min tirajlarla çap olunan söz yığını çıxır. Düzdür, mütləq deyil ki, roman yazmaq üçün səyyah olmaq lazımdır. Amma Qarabağdan, Şuşadan əsər yazanlar o torpaqları mütləq ziyarət etməlidirlər.

**- Maraqlıdır, özünüz Qarabağın azad olunması ilə bağlı roman yazmağı düşünürsüz?**

- İnanmıram ki, bu mövzuda mənə növbə çatsın. Sənət adamı gərək siyasətin, cəmiyyətin mövzuları ilə öz mövzuları arasında keçilməz bir uçurum yarada bilsin. Əsər həm də şəxsə aid olan mənəvi, intellektual ehtiyacdan yaranmalıdır. Azərbaycan ədəbiyyatı öz oxucusuna buna görə alternativ ideyalar verə bilmir. Çünki ədəbiyyatımız, sadəcə, həyatı kopyalayır. Ona görə də haqlı olaraq oxunmur. Nə qədər mübahisəli səslənsə də, deyim ki, bu gün dilimiz ədəbiyyatımızda ölür.

**- Məsələn...**

- Məni bu cür gələcəyimizə aid məsələlər daha çox maraqlandırır. İngilis filoloq Devid Kristalın artıq təsdiqlənmiş proqnozuna görə, daha yaxşı ixtisaslara yiyələnib daha yaxşı yaşamaları üçün valideynlər övladlarına pul qazandıran dilləri öyrədəcəklər. Beləliklə, gec-tez "ana dili" kimi məşhur anlayış öz əhəmiyyətini itirəcək. Dil "çörəyə" qurban veriləcək. Yaxın gələcəkdə heç bir şair öz ana dilini öz xalqına sevdirə bilməyəcək. Dilimiz məlumat, bilgi dili olmadığı üçün çörəyimiz başqa dillərdən çıxacaq. Artıq bu proses başlayıb. Biz millət olaraq artıq öz dilimizdə "ölürük". Gələcək nəsil artıq indidən öz ana dilinə cəfəngiyyat kimi baxır. Bu gün ingilis, alman, fransız, ən pis halda, rus dili azərbaycanlının gələcək taleyini müəyyənləşdirir. Nəyin hesabına? Bilginin, məlumatın hesabına. Orta əsrlərin mətnlərini araşdıran Umberto Eko "Gündəlik həyatdan sənətə" kitabında yazır ki, Orta əsrlərin alimləri belə düşünürdülər ki, onlar özlərindən heç nə yarada bilməzlər. Hər şeyi Avqustin, Aristotel kimi nəhənglər deyiblər. Onların işi sələflərinin yaratdıqlarını təqdir və təbliğ etməkdir. Ekonun Orta əsrlər düşüncəsi dediyi bu köhnəpərəstlik bu gün bizim mədəniyyətin lokomotivdir. Yazıb-oxumağı bacaran, az qala, hər kəs yeni olanın qənimidir. Hakim fikir budur ki, kimsə özündən Amerika icad edə bilməz, hər şey bizə qədər deyilib, biz, sadəcə, yazılanları təkrar etməli, şairimiz demiş, "tozunu almalıyıq". Toz alanlar başımızın tacıdır! Mədəniyyəti yalnız keçmişdə təsəvvür etmək gələcəyin bütün Azərbaycanını itirmək deməkdir.

1951-ci ildən bəri yayımlanan və hər dörd ildən bir yeni hesabat hazırlayan "Ethnologue, Languages of the World"ün son hesabatına görə, bu gün dünyada 7099 dil var (www.ethnologue.com), ancaq bir çox dil alimi hesab edir ki, təxminən, 2500 dil gələn əsrə keçə bilməyəcək. İngilis filoloq Devid Kristalın proqnozları daha vahiməlidir: Kristala görə, önümüzdəki əsrdə bu gün dünyada var olan dillərin yarısı öləcək, bu da orta hesabla hər iki həftədə bir dilin ölməsi deməkdir. Nə qədər kədərli olsa da, bu gün özümüz üçün bu suala cavab axtarmalıyıq: Kristalın dediyi kimi, gələn əsrdə iki həftədən bir ölən dillərdən biri də bizim dilimiz ola bilərmi? Demək istədiyim odur ki, ədəbiyyatımızın qarşısında daha tarixi problemlər var.

> "Türkiyədən baxanda, ümumiyyətlə, müasir Azərbaycan ədəbiyyatı deyə bir şey görünmür"

**- Qarabağda yaşayıb orada çalışmaq istərdinizmi?**

- Belə bir arzum yoxdur. Şəki, Təbriz, Cəlilabad, Bakı mənim üçün hansı dəyərə sahibdirsə, Şuşa, Xankəndi, Ağdam da o dəyərə sahibdir.

**- Uzun müddətdir ki, Türkiyədə yaşayıb-yaradırsınız. Yəqin ki, ədəbi mühitlərin müqayisəsini aparmısınız...**

- Bizi Türkiyədə bu gün daha çox 44 günlük Qarabağ müharibəsindəki igidliyimizlə yad edirlər. Ədəbiyyata, mədəniyyətə gəlincə, Türkiyədən baxanda, ümumiyyətlə, müasir Azərbaycan ədəbiyyatı, mədəniyyəti deyə bir şey görünmür. Ankaranın kitab dükanlarında bircə dənə də olsun Azərbaycan yazıçı və şairlərinin kitabları yoxdur. Bu o demək deyil ki, yazarlarımızın və əsərlərimizin səviyyəsi aşağıdır. Sadəcə, bu gün Azərbaycanın özündə də mədəniyyət, ədəbiyyat canlı həyatda iştirak etmir. Ağıllı türklər bizi nöyüt satıb kababa xərcləyən bir toplum kimi görürlər. Heç bir türk oxucu hansısa müasir Azərbaycan şairinin, yaxud yazıçısının əsərini axtarmır. Niyə? Çünki öz cəmiyyətimizdə də onların ünvanı yoxdur. O gün bir tərcüməçi dostumuz gürcülərin gənc bir gürcü müəllifin Azərbaycan dilinə tərcümə edilməsi üçün işlədiyi nəşriyyata pul ödədiyini yazmışdı. Sonra o kitabın adı "Buker" mükafatına təqdim olunan əsərlərin arasında peyda oldu. Gürcü kimi kasıb bir xalq dünyaya çıxmaq üçün olan-qalan pulunu mədəniyyətə, ədəbiyyata xərcləyir, bizdə isə keçən il pandemiya başlayanda pula qənaət etmək üçün birinci məni işdən çıxardılar.

### "Azərbaycan ədəbiyyatı son dəfə Rafiq Tağı canını tapşıranda canlanıb"

**- Son illər ədəbiyyatımıza yeni gənclər gəlib, təzə nəfəslər duyulur. Ədəbi mühitimizdə canlanma varmı?**

- Sənətdə "canlanma" deyə bir şey olmur. Sənət sükunətdə yaranır, sükunətdə sevilir, sükunətdə də unudulur. O "canlama" deyilən şey kolxoz quruculuğu illərindən qalma bir gəvəzəlikdir. Hanı indi o "canlanma" yaradan əsərlər? Azərbaycan ədəbiyyatı son dəfə Rafiq Tağı canını tapşıranda canlanıb. Əsl sənət canlanmasına aid bir misal deyim.

**- Buyurun...**

- 1917-ci ildə bir qrup fransız rəssam "Azad sənətçilər" adlı bir təşkilat yaratdılar və "Rədd olsun münsiflər, rədd olsun mükafatlar" adlı bir sərgi təşkil etdilər. Bütün ailə üzvləri sənət adamı olan Düşamp da onların arasında idi. Düşamp nə etdi? Evlərinin yaxınlığında məişət əşyaları satılan dükandan bir unitaz aldı, üstünə öz imzasını çəkib sərgiyə yolladı. "Əsərinin" də adını "Bulaq" qoydu. Əllərinə keçən, gözlərinə görünən hər şeydə fikir, düşüncə axtaran sərgi sahibləri, əlbəttə, belə bir şey gözləmədiklərindən Düşampın unitazını sənət əsəri kimi qəbul etmədilər. Çünki Düşamp lap ağ eləmişdi! Düşamp axmaq deyildi, o deyirdi ki, sənət beynin bizim iradəmizə sifariş verdiyi məhsullardır. Beyin hansı tablonu görmək istəyirsə, rəssama onu çəkdirir, hansı romanı oxumaq istəyirsə, yazıçıya o romanı yazdırır, hansı melodiyaya qulaq asmaq istəyirsə, bəstəkara onu bəstələtdirir. Sənətçi öz beyninin qulluqçusudur. "Mən beynimə öz iradəmin əsərini təqdim edirəm, bu unitazdır!". Düşamp və tərəfdarları iddia edirdilər ki, faydasızlığını elan etmiş hər bir şey sənət əsəridir. Biz sənətdən fayda umuruq, bu düşüncə kommunist ideologiyasından yoluxub bizə. Kommunizm sənəti istismar edirdi, onunla kapitalizmin meyarları ilə davranırdı. Düşamp isə sənətdə nəinki fayda, hətta estetika və gözəllik anlayışını da inkar edirdi: "Bulaq" (unitaz) əsərimi sərgiyə göndərməklə məqsədim gözəlliyi, yaxud eybəcərliyi ilə diqqətimi çəkməyən bir obyekt seçmək idi. Yəni sənət əsəri deyib baxdığımda bir-birimizə dəxlimizin olmadığı bir şeyi tapmaq!". Düşampa görə, sənət universaldır, onun öz müəllifinə və tamaşaçısına heç bir dəxli yoxdur. Biz olmasaq belə, sənət özü-özünü yaradacaq və yaşadacaq. Düşamp, "Sənəti sənətçinin özündən başqa heç kim qiymətlədirə bilməz" deyəndə artıq biz tərəfdə sovet hökuməti qurulmuşdu və Kommunist Partiyası bir ucdan sağ qalmaq üçün bir-birini satan sənətçilərə fəxri adlar paylayırdı. Sənətdə canlanma Düşampın sənət haqqında fikirləridir. Necə ki, ölümündən otuz il sonra onun "unitazı" "XX əsrin ən təsirli əsəri" seçildi.

**- Bu gün yazıçı və şairlərimizin əksəriyyərti kitablarını səyyar şəkildə satışa çıxarır...**

- Bu, milli biabırçılıqdır. Elitamız neft elitasıdır. Neftxuda kafalıdır. Kitabla, mədəniyyətlə heç bir ünsiyyəti yoxdur. Bir dəfə Həmid Herisçi dedi ki, ana südü pula gedən bir şey olsaydı, çoxdan Azərbaycanda onun zavodunu açardılar. Elitamız mədəniyyətdən, sənətdən pul qazanmağın yollarını bilmir. Ona görə kitab kimi, kino kimi dünyaya milyonlar qazandıran sənət janrları Azərbaycanda küçələrdə tüfeyli həyat yaşayır.

**- Türk yazıçı və şairləri ilə bizimkilər arasında nə kimi fərqlər var?**

-Yazıçı və şairlərimiz arasında bir o qədər fərq yoxdur, cəmiyyətlərimizin, elitalarımızın, dəyərlərimizin hazırkı durumunda fərq var...

**Söhbətləşdi: Yeganə Bayramova**



# Bütün müzakirələr ictimaiyyətə açıqlanmır

## 4 partiyanın bir araya gəlməsi birgə qərarlara da təsir edə bilər

**Sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn Azərbaycan Milli İstiqlal Partiyası (AMİP), AĞ Partiya və Böyük Azərbaycan Partiyasının (BAP) sədrləri ilə görüşüb. P.Hüseyn bununla bağlı feysbuk hesabında məlumat yayıb. O qeyd edib ki, görüşdə müəyyən razılıq əldə ediblər:**

Birinci, qeyri-rəsmi görüş ənənəsi saxlanılmaqla rəsmi görüşlərə keçilsin. İkinci, yerlərdə (rayonlarda), partiyaların rayon təşkilatları rəhbərlərinin iştirakı ilə analoji qeyri-rəsmi görüşlərin keçirilməsi təşəbbüsü bəyənilsin. Üçüncü, ölkənin siyasi və sosial problemlərinə aid mütəxəssislərin iştirakı ilə dinləmələr keçirilməsi təşəbbüsü bəyənilsin. Dördüncü, "Siyasi partiyalar haqqında" yeni qanunun Konstitusiya islahatına dair referendumdan sonra qəbulu daha məqbul hesab edilsin. Beşinci, "Köklü islahatlarla dəyişikliklərə doğru" sənədinin mətni azərbaycanca, ingiliscə və rusca bir yerdə çap olunsun. Altıncı, bahalaşmaya qarşı (yanacağın axırıncı bahalaşması daxil) narahatlıq və etiraz ifadə edilsin. Yeddinci, Azərbaycana qarşı İranın dost olmayan və düşmənçilik hərəkətlərindən, silahlı güc nümayişi ilə Azərbaycan xalqını qorxutmaq cəhdlərindən təəssüf ifadə edilsin və hiddətlə pislənilsin. Azərbaycan xalqının öz azadlığı, haqq və hüquqları uğrunda hər cür mübarizəyə hazır olduğu xüsusi olaraq vurğulansın. Səkkizinci, Rusiya sülhməramlılarının artan təxribatları pislənilsin və bildirilsin ki, bu siyasətin davam etdirilməsi Rusiya silahlı qüvvələrinin Qarabağdan çıxarılması uğrunda kütləvi xalq hərəkatının yaranmasını aktuallaşdırır. Partiyalarda bu təşəbbüsün öyrənilməsi məqsədəuğun sayılsın".

Görüşün əhəmiyyəti ilə bağlı təəssüratlarını "Şərq"lə bölüşən AĞ Partiya sədri Tural Abbaslı bu cür qeyri-rəsmi müzakirələrin mütəmadi olduğunu söyləyib: "Təxminən iki həftədən bir bu görüşlər səhər yeməyi formatında baş tutur. 4 partiya sədri görüşürük və bəzən müavinlər də iştirak edir. Adətən AMİP, AĞ Partiya, BAP və AXP-nin sədrləri görüşür və bu, ənənə halını alıb. Aktual məsələlərin müzakirəsi, 4 partiya arasında münasibətlər, gündəmdə olan məsələlərə birgə fikrin formalaşdırılması, gələcəklə bağlı planlara yanaşma tərzi ilə bağlı fikir mübadiləsi aparılır. Bəzi məlumatlar ictimaiyyətə statuslar vasitəsilə çatdırılır, bir çoxları isə öz aramızda müzakirə formatında qalır. Görüşün əsas niyyəti 4 partiya arasında münasibətlərin formalaşması və lazım gəldikdə birgə siyasi addımların atılmasıdır. Qeyri-rəsmi formatın keçirilməsində səbəb istəmədik ki, hər şey tam rəsmiləşsin, ona görə də daha səmimi müzakirələrin olmasına çalışdıq".

**Yeganə Bayramova**

# İrandan Azərbaycana gətirilən kartoflar zay çıxdı

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ölkəyə idxal olunan qida məhsullarına nəzarət tədbirləri davam etdirilir.**

AQTA-dan verilən xəbərə görə, nəzarət tədbirləri çərçivəsində İran İslam Respublikasından fiziki şəxs Yalçın Nemət Oqtay oğlu tərəfindən cari ilin 6 və 10 sentyabr tarixlərində idxal edilən ümumi çəkisi 47600 kq, hüquqi şəxs "Salamoğlu-2020" MMC tərəfindən isə 7, 8 və 14 sentyabr tarixlərində idxal edilən ümumi çəkisi 70800 kq olan ərzaqlıq kartof məhsul partiyalarına agentliyin müfəttişləri baxış keçirib. Baxış zamanı idxal olunan məhsuldan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunub. Nümunələrin götürülməsi prosesində yük sahibinin və onun səlahiyyətli nümayəndəsinin iştirakı təmin edilib və ekspertiza keçirilənə qədər məhsul partiyasının toxunulmazlığı ilə bağlı xəbərdarlıq olunaraq onların bu barədə iltizamı alınıb. Aparılmış ekspertizanın nəticələrinə əsasən, qeyd edilən beş idxal partiyasının hər birində ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilmiş zərərverici (Phthorimaea operculella - kartof güvəsi tırtıl mərhələsində) aşkar edilib. Karantin tətbiq edilmiş bu cür zərərli orqanizmlər ətraf mühitə, ölkənin iqtisadi potensialına təhlükə yaradır. Belə ki, kartof güvəsi kartof məhsuluna ziyan vuraraq onu tez bir zamanda xarab etməklə yanaşı, həmin xəstəliyin ölkə ərazisində yayılmasına və digər təsərrüfatlarda da böyük iqtisadi zərərlərin meydana gəlməsinə gətirib çıxara bilər. Belə zərərli orqanizmlər kütləvi yayıldıqda sahədə və ya çardaq altında müvəqqəti saxlanılan kartof məhsulunu 2-3 həftə ərzində tamamilə məhv edə bilir.



## Təhlükəsizlik məqsədi ilə bu ölkədən gətirilən bütün məhsullara diqqət artırılıb

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan öz kartof məhsulunu xarici bazarlara satdığına görə ölkədə kartof çatışmazlığı yaşanır. Ekspert qeyd edib ki, bunun aradan qaldırılması üçün Azərbaycan əsasən İran və Gürcüstandan daha ucuz qiymətə kartof almaq məcburiyyətindədir**: "Ölkəmizdə soyuducu anbarlarının azlığı kartof tədarükünə mənfi təsir göstərir. Həmçinin, kartof tədarükünə mənfi təsir göstərən amillərdən biri də kartoflarda ziyanvericilərin olmasıdır. Bir amili də diqqətinizə çatdırım ki, əvvəllər adətən kəndli məhsulunu daha baha qiymətə satmaq üçün digər ölkələrin sahibkarları ilə müqavilə bağlayırdı. Təbii ki, bunun qarşısını almaq üçün məhsulun kilosuna 1 dollara vergi rüsumu tətbiq edildi ki, ölkədə yetişən kartof digər ölkələrə getməsin. Nəticədə bu, böyük səs-küy yaratdı. Təbii ki, bu, düşünülməmiş addım idi. Çünki sahibkar 5-10 illik digər ölkələrlə müqavilə bağlayır və bu illər ərzində o kartofu yetişdirib həmin bazara çatdırmalı idi. Əlbəttə ki, bu cür qərarlar Azərbaycanda qismən də olsa kartofun tədarükünə mənfi təsir göstərdi".

**İqtisadçı vurğulayıb ki, İranla Azərbaycan əlaqələrində Qarabağ məsələsinə görə son günlər bir qədər soyuqluq müşahidə olunur və bu baxımdan da təhlükəsizliyi təmin etmək üçün İrandan gələn mallara diqqət daha da artıb:** "Bilirsiniz ki, İran hökumətinin bəzi qüvvələri bizi müxtəlif formada təhdidlə hədələyirlər. Dövlət isə buna dolayı yolla cavab verməlidir, yəni birbaşa əlaqələrə zərər yetirməməklə. Misal üçün, Rusiya ilə bizim aramızda hər hansı narazılıq olanda Rusiya dövləti bizim məhsulları gömrükdə saxlamaqla, onların sıradan çıxmasına nail olmaq istəyirdi və ya məhsullarımızda hər hansı xəstəlik tapılırdı. Xəstəliyin tapılması nədənsə yalnız narazılıq vaxtına düşürdü. Amma yenə qeyd edirəm ki, ola bilər ki, təhlükəsizlik baxımından sərhədlərimiz gücləndirilib. Bildiyiniz kimi, son zamanlar İran hökuməti təlimlərini bizim sərhədboyu ərazilərdə həyata keçirir. Bu da bizi ilk növbədə diqqətli olmağa sövq edir".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi**

"Mən peyvənd olunmuşdum, amma ölümcül xəstələndim", kimi feyk xəbərlərə inanmayın"



# Özümüzü, cəmiyyəti qorumalıyıq!

## Bütün dünya çıxış yolunu peyvənddə görür

**Ölkədə COVİD-19 əleyhinə peyvəndlənmə kampaniyasında müsbət irəliləyiş müşahidə edilir. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, ötən gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 410, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 615 nəfər olub.**

Ölkədə vurulan vaksinlərin ümumi sayı 7 977 574, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 4 619 842, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 3 357 732 təşkil edir. Bu rəqəmlər hər gün dəyişir və koronavirusa qarşı peyvənd olunanların sayı da hər gün artır. COVİD-19 dünyanı bürüyəndən alimlər, mütəxəssislər bu bəladan xilas olmağın, normal həyata qayıtmağın yolunu yalnız peyvəndlənmədə gördüklərini bildirirdilər. Dünya dövlətlərinin əksəriyyəti COVİD bəlasından qurtulmaq üçün vaksinlər alır, vətəndaşları peyvənd olunmağa təşviq edirlər. Azərbaycan da həmçinin. Azərbaycan dövləti ilk növbədə vətəndaşların sağlamlığının qorunmasını prioritet hesab edərək vaksinasiya məsələsinə ciddi yanaşır. Lakin təəssüf ki, bəzən dövlət siyasətinin əleyhinə olan, insanların sağlamlığı ilə manipulyasiya edənlər də tapılır. Xatırladaq ki, Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarı ilə 2021-ci il 1 sentyabr tarixindən etibarən dövlət orqanları əməkdaşlarının, müəssisələrin işçilərinin azı 80 faizinin COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması tələb edilir. Qərarda göstərilir ki, peyvənd olunmayan və ya immunitet sertifikatı olmayanların bir sıra məkanlara girişi məhdudlaşdırılacaq. Bunu eşidənlər arasında vaksin vurdurub immunitet qazanmaq əvəzinə saxta yollarla COVİD pasportu, immunitet sertifikatı əldə etməyə çalışanlar oldu. Baş Prokurorluq tərəfindən saxta COVİD pasportu satan tibb işçiləri məsuliyyətə cəlb edildi. Lakin indi də qanundankənar əməllər üzə çıxarılır və cavabdehlər məsuliyyətə cəlb edilir. Dövlət ölkəyə vaksinlərin gətirilməsini təmin edir, vətəndaşların peyvənd olunması üçün şərait yaradır, lakin məsuliyyətsiz insanlar saxtakarlığa rəvac verməklə ilk növbədə özlərini, ailə üzvlərini, doğmalarını, digər vətəndaşları da yoluxma riski ilə üz-üzə qoyur, ictimai təhlükə yaradırlar. Eyni zamanda vaksinasiya strategiyasının ziddinə getməklə dövlətə də ziyan vururlar. İndi taksi sürücüləri arasında da saxta sənəd əldə etməyə çalışanlar var. Bu, onunla bağlıdır ki, oktyabr ayının 1-dən etibarən ölkə ərazisində fəaliyyət göstərən, COVID-19 pasportu olmayan bütün taksi sürücülərinə qarşı reydlər keçiriləcək. Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, oktyabr ayının 1-dən koronavirus infeksiyasına qarşı hər iki peyvənd olunmayan taksi sürücüləri barədə qanuna müvafiq tədbirlər görüləcək. DİN mətbuat xidmətindən məsələyə bir daha aydınlıq gətirilərək bildirilir ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə işçilərinin COVID-19-a qarşı peyvənd olunması və ya immunitet sertifikatının tələb olunduğu iş və xidmət sahələri dairəsinə avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti daxildir. Buna görə də polis əməkdaşlarının avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatını yoxlaması qanunauyğundur. Bütün bu tədbirlər koronavirus pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunması və onun törədə biləcəyi fəsadların qarşısının alınmasına yönəlib.

**Saxta COVİD pasportu və immunsertifikat əldə etməyə çalışanlara həkim Vaqif Qarayev məsləhət verdi:**

- Koronavirusa yoluxma və ölüm sayında son günlər stabilləşməyə meyl müşahidə edilir. Sağalanların sayı günbəgün artır. Bu, yaxşı əlamətdir. Klinikalarda sıxlıq olmayacaq. Düşünürəm ki, yoluxma sayına kütləvi peyvəndləmə mütləq müsbət təsir edəcək. Ayın sonunda bu göstərici də azalacaq. Qonşu Gürcüstanda da müsbət tendensiya müşahidə olunur, amma ölüm sayı ürəkaçan deyil orda. Hökumət qapanmaya getməyəcək, çıxış yolunu vaksinasiyada görürlər. Türkiyədə də zəif də olsa stabilləşmə var. Yaxın günlərdə öz vaksinlərindən istifadə edəcəklər. Rusiyada vəziyyət yaxşı deyil, amma vaksin baxımından problem yoxdur orda. Özləri istehsal edir. ABŞ-da kifayət qədər yoluxma var. Amma ölüm 1-2 faiz civarındadır. Stasionarlarda müalicə alanların 97 faizi peyvəndsizlərdir. Bayden bir sıra peşə sahiblərinin məcburən vaksinasiya olunması haqqında qərar verdi. Xülasə, bütün dünya çıxış yolunu peyvənddə görür. "Mən peyvənd olunmuşdum, amma ölümcül xəstələndim", kimi feyk xəbərlərə inanmayın. Peyvənd olunanlar yoluxa bilər, amma ölümcül olmayacaqlar. Bir az diqqətlə müşahidə aparsaq görərik ki, ən çox xəstələnənlər peyvəndsizlərdir. Peyvənd olunmaqla özümüzü, cəmiyyəti də qorumuş olacağıq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Belə nakişiliyi əfv etmək olmaz

## Şəhid anasının hissləri ilə oynayanları ən sərt şəkildə cəzalandırmaq lazımdır

**Vətən müharibəsində iştirak edərək qəhrəmancasına həlak olmuş şəhidlərimizdən birinin qohumları Daxili İşlər Nazirliyinə müraciət ediblər. DİN-dən verilən məlumata görə, şəhid olan şəxs yaşadığı rayonda dəfn edilsə də, anası övladının dünyasını dəyişmədiyinə inandırılıb. Ana dəfn etdikləri şəhidin başqa birisi olduğunu zənn edərək çıxış yolunu "falçı"lara müraciət etməkdə görüb.**

Bu məqsədlə o, Xəzər rayonunda yaşayan və "falçı" kimi tanıdığı bir qadına müraciət edib. Həmin şəxs 100 manat pul müqabilində "fala" baxaraq övladının dünyasını dəyişmədiyini və əsirlikdə olduğunu anasına bildirib. Sonradan falçının oğlu İxtiyar Orucov və şəhidin yaxın qohumu Balaxan Hüseynlinin ünsiyyətləri yaranıb. Onlar əlbir olaraq şəhidin ailə üzvlərinə dövlət tərəfindən ayrılan pulu, eləcə də onların əlində olan əlavə maddi vəsaitləri dələduzluq yolu ilə ələ keçirmək barədə razılığa gəliblər. Həmin şəxslər öz çirkin əməllərini həyata keçirmək üçün şəhidin fotolarını montaj edərək, guya, onun əsirlikdə sağ olmasını özündə əks etdirən yeni şəkillər hazırlayıblar. Bu şəxslər hətta qrim ustasının yanına gedərək, guya, şəhid haqqında sənədli film çəkiləcəyini qeyd ediblər. Balaxan Hüseynlinin qrimdən istifadə edərək şəhidə bənzədilməsinə nail olublar. B.Hüseynlinin qrimlənmiş şəkillərini və videogörüntülərini şəhidin anasına göstərərək övladının "sağ" olduğuna inandırmağa nail olublar. Niyyətlərini həyata keçirmək məqsədi ilə mərhumun qohumu öz səsini şəhid qohumunun səsinə bənzədərək bir neçə dəfə İxtiyar Orucovun telefonu ilə şəhidin anası ilə danışıb, sağ olduğuna dair onlarda yanlış təsəvvür yaradıb. Daha sonra hər iki şəxs şəhidin anasından və qohumlarından pul almaq üçün guya, əsirlikdə olan övladlarını qonşu ölkələrdən biri vasitəsilə Azərbaycana gətirəcəkləri adı ilə aldadaraq bu məqsədlə onlardan 100 min manat pul istəyib və müxtəlif vaxtlarda hissə-hissə şəhidin qohumlarından 26 min 800 manat alıblar. Faktla bağlı cinayət işi başlanılıb. Hər iki şəxsə ittiham elan edilib və məhkəmənin qərarı ilə barələrində həbsqətimkan tədbiri seçilib. Onlar ifadələrində törətdikləri qanun pozuntusunu etiraf ediblər.

İctimaiyyət nümayəndələri hesab edirlər ki, şəhid anasını aldadan cinayətkarlar ən ağır cəzanı almalıdır. Çünki ən həssas duyğuları çirkin oyunlara alət etmək və bu sayədə pul "qazanmaq" insanlıqdan kənar hərəkətdir.

**Millət vəkili Elman Məmmədov da "Şərq"ə açıqlamasında bildirib ki, bu cür məxluqları əfv etmək olmaz. Deputatın sözlərinə görə, onlar elə formada cəzalandırılmalıdır ki, gələcəkdə buna cəhd etmək istəyənlərə ibrət olsun:**

**Elman Məmmədov: "Heç kim şəhid anasını qınamasın. Övladından xəbər ala bilməyən ailənin üzvləri, ata-analar daim balalarının sağ qalması ümidi ilə yaşayırlar"**

"1990-cı illərin əvvəllərində xocalıların ən ağrılı məsələsi yaxınlarının aqibətindən xəbər-ətər olmaması idi. Bənzər hadisələri biz də yaşamışıq. Ermənilər tərəfindən əsir götürülmüş Xocalı sakinlərinin sayı çox idi. Hələ də 150 insanımız barədə heç bir məlumat yoxdur. Əfsuslar olsun ki, həmin dövrdə də yaxınlarından, övladlarından xəbərsiz olan ailələrin başına bu cür oyun açan dələduzlar, vələdüznalar peyda olurdu. Şanlı Zəfərimizdən sonra yenidən bu cür saxtakarlıqlarla üzləşmək çox üzücü, məyusedici və hiddət doğurandır. Heç kim şəhid anasını qınamasın. Övladından xəbər ala bilməyən ailənin üzvləri, ata-analar daim balalarının sağ qalması ümidi ilə yaşayırlar. Bir an olsun, fərqli düşüncəyə qapılmır, hansı yolla olur-olsun, yaxınlarının sağ-salamat geri dönməsini arzulayırlar. Gözlərinə pul-para, var-dövlət görünmür. Onların çarəsizliyindən, son ümidindən sui-istifadə edənlər namərd və nadürüstlərdir. Həmin şəxslər insanlıqdan uzaqdır. Əlbəttə, qanun cinayətkarların layiqli cəzasını verəcək. İctimaiyyət haqlı olaraq onlar haqqında çox kəskin fikirdədir və sərt cəzalandırılmasını tələb edirlər". Parlament üzvü vurğulayıb ki, onlar ən ağır ifadələrə və cəzaya layiqdirlər: "Belə namussuzluğu, nakişiliyi bağışlamaq olmaz. Şəhid anasının əziz hissləri ilə oynamaq nə deməkdir? Dələduzlar elə şəkildə cəzalandırılmalıdır ki, digərlərinə də görk olsun, heç kim təkrarlamağa cəsarət etməsin. Onu da qeyd edim ki, müəyyən neqativləri çıxmaq şərti ilə sosial şəbəkələrin ictimai qınaq üslubu təqdirəlayiqdir. Sosial şəbəkələr bəzi hallarda ictimai nəzarət funksiyasını yerinə yetirir. İnsanlar sosial platformalar vasitəsi ilə etirazlarını dilə gətirir, müvafiq qurumlar qarşısında tələblər irəli sürürlər. Bu, yaxşı haldır".

**İsmayıl Qocayev**

# Moskva Krım məsələsində Ankaradan güzəşt gözləyirdi

## Elçin Xalidbəyli: "Rusiya-Türkiyə münasibətlərində müəyyən problemlər yarana bilər"

**Ankara Krımda Rusiya Dövlət Dumasına keçirilən seçkinin nəticələrini tanımır. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti məlumat yayıb. Rəsmi Ankara seçkinin hüquqi qüvvəsinin olmadığını bildirib. Bəyanatda Türkiyənin Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyi qeyd olunub. Analoji bəyanatı AB-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrell də yayıb.**

Bildirilib ki, AB Krımın və Sevastopol şəhərinin qanunsuz ilhaqını və bu səbəbdən işğal altındakı Krım yarımadasında keçirilən qondarma seçkiləri tanımır: "Rusiyanın Ukraynadakı Donetsk və Luqansk bölgələrinin hökumət tərəfindən nəzarət edilməyən hissələrini seçkilərə daxil etmə qərarı Minsk razılaşmalarının məqsədlərinə ziddir. AB Ukraynanın ərazi bütövlüyü və suverenliyini dəstəkləməyə davam edir".

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Ankaranın bəyanatını cavabsız qoymayıb. O bildirib ki, Moskva Türkiyə XİN-in Krımdakı seçkini tanımamasından müvafiq nəticələr çıxarır. Diplomatın sözlərinə görə, Türkiyə Krımın Rusiya Federasiyasının suveren bir hissəsi olduğunu çox yaxşı bilir.

**Türkiyənin Krımla bağlı mövqeyini və Moskvanın reaksiyasını "Şərq"ə təhlil edən "Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli deyib ki, Rusiyada Dövlət Dumasına keçirilən seçkilər Kremlə müəyyən problemlər yaratmağa başlayıb. Analitikin fikrincə, bu seçkilər Rusiyaya kifayət qədər ciddi başağrısı yaradacaq:** "Əlbəttə, əsas problem yalnız seçkilərdə yol verilən qanun pozuntuları deyil. Bütün dünya Rusiyada heç vaxt azad və ədalətli seçki keçirilmədiyini bilir. Ona görə də bu məsələ o qədər ön planda deyil. Ancaq Rusiya Dumasına seçkilərin Krım yarımadasında da keçirilməsi beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Beynəlxalq hüquqa görə, Krım yarımadası Ukraynanın ayrılmaz tərkib hissəsidir. Rusiya Krım yarımadasını ilhaq etsə də, beynəlxalq hüquq qarşısında olan problemlərini həll edə bilməyib. Yəqin ki, heç vaxt da həll edə bilməyəcək. Türkiyənin və Avropa Birliyinin Rusiya Dövlət Dumasına Krım yarımadasında keçirilən seçkilərin nəticələrini tanımaması ilə bağlı bəyanatları beynəlxalq hüquq normalarının tələblərinə tamamilə uyğundur. Kremlin bu bəyanatlardan qıcıqlanması tamamilə yersiz və mənasızdır. Ukrayna Türkiyə ilə dost ölkədir. Rəsmi Ankara Ukraynanın ərazi bütövlüyünü tanıyır və müdafiə edir. Türkiyənin ötən ay Ukraynada keçirilən "Krım platforması"nda fəal iştirak etməsi də bunu təsdiqləyir. Rəsmi Ankara Rusiya ilə münasibətlərinin normal olmasına baxmayaraq, Ukrayna ilə bağlı mövqeyindən qətiyyən geri çəkilmək niyyətində deyil".



**E.Xalidbəyliyə görə, Kremlin məsələyə həssas yanaşması anlaşılandır:** "Moskva Krım yarımadasını Rusiya ərazisi kimi təqdim etməklə yanaşı, rəsmi Ankaradan da dəstək gözləyir. Rusiya XİN-in rəsmisi Mariya Zaxarovanın "Türkiyənin Krımla bağlı mövqeyindən nəticə çıxarılacaq" deməsi də, rəsmi Ankaraya üstüörtülü mesaj sayıla bilər. Rusiya tərəfi bununla Türkiyə ilə münasibətlərə müəyyən düzəlişlər oluna biləcəyinə eyham vurur. Yəni belə anlaşılır ki, Rusiya-Türkiyə münasibətlərində müəyyən problemlər yarana bilər. Hazırda bir çox beynəlxalq məsələlərə münasibətdə Rusiya və Türkiyənin maraqları böyük ölçüdə üst-üstə düşür. Düzdür, bəzi regionlarda Rusiya və Türkiyə arasında müəyyən ziddiyyətlər də olmamış deyil. Ancaq bu iki dövlət arasında bəzi bölgələrə münasibətdə olduqca ciddi geopolitik ortaqlıqlar da var. İndi Rusiyanın ilhaq etdiyi Krım yarımadası ilə bağlı ziddiyyət ucbatından münasibətlərin pozulması hər iki ölkəyə ziyan vura bilər".

**Siyasi şərhçinin fikrincə, Zaxarovanın eyhamları o qədər də böyük əhəmiyyət daşımır:** "Türkiyə və Rusiya münasibətləri birmənalı şəkildə bu iki ölkənin prezidentləri - Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin tərəfindən tənzimlənir. Rusiyanın beynəlxalq təzyiq və təhdidlərə hədəf olduğu indiki dönəmdə Kreml sahibi Türkiyə kimi güclü tərəfdaşı itirmək də istəməz. Yəqin ki, Kreml bu məsələnin üzərindən mümkün qədər sükutla ötməyə üstünlük verəcək. Bu baxımdan, Türkiyə-Rusiya münasibətlərinin gələcək inkişaf istiqamətləri yaxın günlərdə Soçidə keçiriləcək Ərdoğan-Putin görüşündən sonra aydınlaşmağa başlaya bilər. Zaxarovanın "Ankara Krımın Rusiyanın suveren ərazisinin tərkib hissəsi olduğunu bilir" deyərkən nəyə işarə etməsinə gəldikdə isə, bu, daha çox tarixə yönəlik eyhamdır. Məsələ ondadır ki, Krım yarımadası uğrunda Türkiyə və Rusiya arasında yüzilliklər öncə müharibələr olub. Həmin savaşlar nəticəsində Rusiya Krım yarımadasını öz ərazisinə qatmağa nail olub. Sonradan keçmiş SSRİ dövründə Krım yarımadası Ukraynanın tərkibinə verilib. M.Zaxarova da məhz bu tarixi məqamlara eyham vuraraq, Türkiyənin Krım yarımadasının Rusiyaya aid ərazi olduğunu bildiyinə işarə edir".

**Həmsöhbətimiz qeyd edib ki, Mariya Zaxarovanın və Kremlin nəzərə almaq istəmədikləri daha bir önəmli məqam mövcuddur:** "Keçmiş SSRİ dağılarkən Krım yarımadası Ukraynanın tərkib hissəsi olub. BMT və digər beynəlxalq qurumlar da Ukraynanın sərhədlərini məhz tərkibində Krım yarımadası olmaqla, tanıyıblar. Beynəlxalq hüquqa görə, sərhədlərin zorakı dəyişdirilməsi isə yolverilməzdir. Bu baxımdan, Krım yarımadası Ukraynanın ayrılmaz tərkib hissəsidir və Rusiya beynəlxalq hüquq qarşısında gücsüzdür. Ona görə də hesab etmək olar ki, Rusiyanın beynəlxalq hüquqa görə, Ukrayna ərazisi olan Krım yarımadasında Dövlət Dumasına seçkilər keçirtməsi Kremlə ciddi problemlər yarada bilər. Hər halda, bu faktdan istifadə etməklə, Rusiyaya qarşı yeni beynəlxalq sanksiyaların tətbiq ediləbiləcəyi qətiyyən istisna deyil".

**İsmayıl Qocayev**

# Təbiəti, mənzərəsi çox gözəldir

## Xınalıq niyə də "ən yaxşı turistlik kənd" olmasın



**Quba-Xınalıq turizm marşrutu ölkəmizin şimal bölgəsinə gələn turistlər arasında ən populyar səyahət istiqamətidir.**

Əsrarəngiz təbiət mənzərələrinə malik Qəçrəş meşələri, dağ yamacı boyunca axan bolsulu Qudyalçay, Qafqaz dağlarının sıldırım qayalıqları arasındakı füsunkar gözəlliklər və unikallığı ilə bütün dünyada tanınan qədim Xınalıq kəndi turistləri bura cəlb edir. Bununla yanaşı, Quba rayonunun Azərbaycan paytaxtına məsafə baxımından yaxın region olması da turist axınında böyük rol oynayır. Qeyd edək ki, Ümumdünya Turizm Təşkilatının (United Nations World Tourism Organization - UNWTO) elan etdiyi "Ən yaxşı turistik kənd" müsabiqəsinə Azərbaycandan Xınalıq kəndinin namizədliyi irəli sürülüb. Bu barədə Dövlət Turizm Agentliyindən məlumat verilib. Təşkilatın bu layihəsinin əsas məqsədi kənd ərazilərində turizmin inkişafı üzrə ən yaxşı nümunələri üzə çıxarmaq, həm də uzun illər boyunca öz unikallığını, mədəni-tarixi irsini qoruyan, bununla yanaşı, həm də müasir turizmin tələblərinə cavab verən kəndləri aşkarlamaqdır.

Azərbaycanın bu cür müsabiqələrdə iştirakının əhəmiyyətli olduğunu qeyd edən iqtisadçı-alim Nazim Bəydəmirli "Şərq"ə açıqlamasında qeyd edib ki, əslində bu cür müsabiqələr gələcəkdə xarici ölkələrin turizm şirkətlərinin ölkəmizə olan marağını artıra bilər. İqtisadçı ancaq indiki durumda Azərbaycanın hər hansı bölgəsində turistlik potensialının inkişafına inanmadığını bildirib: "Təbii ki, daxili turizm baxımından bizim ölkədə kifayət qədər imkanlarımız var. İlk növbədə bunu inkişaf etdirməliyik. Onun üçün də maarifçilik işi aparılmalıdır ki, vətəndaşlarımız Şimali Qafqaz, yaxud da ki, Ukrayna kurortlarından könüllü imtina etsinlər. Hesab edirəm ki, bölgələrimizə daha çox diqqət ayırsaq və infrastruktur yaratsaq, o zaman Şimali Qafqaz kurortlarını əvəz edə bilərik. Məsələn, Kəlbəcərdə, Gədəbəydə və digər bölgələrimizdə, xüsusilə müalicəvi sular olan yerləri tədricən kurort mərkəzlərinə çevirə bilərik".

### "Qarşıya hədəflər qoymaq bu istiqamətdə çox işlər görmək lazımdır"

**N.Bəydəmirli əlavə edib ki, Azərbaycan investisiya baxımından cəlbedici ölkə olmadığına görə xaricilərin bura cəlb olunması da qeyri-ciddidir:** "Turistləri daha çox aşağı ranklı otellər cəlb edir. Ancaq Azərbaycanda tikilən otellərin əksəriyyəti böyük holdinqlərə məxsusdur. Onlar da daha prestijli "otel"lərdir. Burda da əsas məqsəd daha çox pul qazanmaq yox, daha çox pul yumaqdır. Yəni burda məmur sahibkarlardan daha çox olduğuna görə, korrupsiya və rüşvətxorluq halları da olur. Xınalığa gəldikdə isə, mən özüm orda hələ 82-ci ildə olmuşam. Tələbə olarkən ekspedisiyanın tərkibində olmuşam, torpaq xəritələri çəkilən zaman. Oranın mənzərəsi təbii ki, çox gözəldir. Oradakı əhalinin özünəməxsus dil və adət-ənənələrini, kəndin özünün koloritini mən o zamandan sevmişəm. Fürsətdən istifadə edərək, bunu da qeyd edim ki, Azərbaycanda yaşayan bütün milli azlıqlar Azərbaycan dövlətinin mənəvi sərvətidir. Onlara həm öz dillərini, adət-ənənələrini, məişətini, mədəniyyətini inkişaf etdirmək üçün hər cür şərait yaradılıb və yaradılmaqda da davam edir. Ümumiyyətlə, Azərbaycanın turizm potensialının ümumi vəziyyəti qonşu Gürcüstanla müqayisə edilməz dərəcədə aşağı səviyyədədir. Qeyd edim ki, pandemiyadan öncə Gürcüstana 7-8 milyon turist gəlirdi, turistlər yerli əhalinin sayından demək olar ki, ortalama iki-üç dəfə çox idi. Bu baxımdan rəqabət aparmaq üçün Azərbaycan Gürcüstanın təcrübəsindən mütləq yararlanmalıdır. Qeyd edim ki, xarici ölkə vətəndaşları hər hansı bir ölkəyə gedərkən, həmin ölkənin parametrlərinə baxırlar və onları müqayisə edirlər. Bu baxımdan hesab edirəm ki, bu istiqamətdə çox işlər görülməlidir. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün hər hansı müsabiqələrdə iştirak etmək, təkcə piar xarakterli tədbirlər olmamalıdır. Qarşıya hədəf qoymaq lazımdır. Yəni maksimuma çatmaq üçün minimum hədəfləri aşmaq lazımdır".

**Aynurə Pənahqızı**

## Azercell Ağdamda keçirilən ilk Beynəlxalq elmi-praktik konfransı internet şəbəkəsi ilə təmin edib

**Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə Xüsusi Nümayəndəliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Qarabağ Dirçəliş Fondu və AMEA İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları" mövzusunda I Beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransda "Ağdamda yeni iqtisadiyyat quruculuğu: iqtisadi potensial, prioritetlər və gözləntilər", "Ağdamın və bütövlükdə Qarabağın təbii resursları və yaşıl enerji potensialı", "Qarabağda iqtisadiyyatın ənənəvi və qeyri-ənənəvi sahələri arasında müvazinət", "Məcburi köçkünlərin Ağdama və Qarabağın digər bölgələrinə qayıdışı" məsələləri müzakirə olunub.

Azercell şirkətinin texniki dəstəyilə konfrans iştirakçıları bütün tədbir boyunca yüksəksürətli internet xidmətləri ilə təmin olunublar. Azercell-in şəbəkəsi konfransın bəzi iclaslarının videoformatda - onlayn şəkildə keçirilməsini də mümkün edib.

Qeyd edək ki, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər Azercell-in 2G/3G/4G standartlarını dəstəkləyən mobil şəbəkəsi ilə əhatə olunub.

Nəzərə çatdıraq ki, Azercell şirkəti öz abunəçilərinə Qarabağ Dirçəliş Fonduna daha rahat və sürətli formada ianə köçürmək imkanını da yaradıb. Azercell-in "Kabinetim" tətbiqi üzərindən 24/7 rejimində Silahlı Qüvvələrə Yardım Fonduna ianə köçürülməsi də hələ müharibənin ilk günlərindən mümkün olmuşdur.

Azercell Qarabağ və ətraf bölgələrdə mobil şəbəkə infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir ki, bu da həmin ərazilərin sürətli inkişafına öz töhfəsini verəcək.

**Elan**

Biləsuvar şəhəri sakini Mirişov Bəxtiyar Ağacəfər oğluna məxsus (004712 nömrəli) Şəhid Ailəsi Üzvünün Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## Narkotikaya qarşı ölkədə müharibə elan olunmalıdır

### Nurəddin Mehdixanlı: "Bir xalqa qarşı açıq savaş apara bilməyəndə, onunla gizli savaşırlar"

**Son zamanlar ölkəmizdə narkotik vasitələrdən istifadə edənlərin və satanların sayı xeyli çoxalıb.**

Demək olar ki, hər gün qəzet və sayt manşetlərini "filan yerdə narkotik vasitə satan şəxs saxlanıldı" başlıqlı xəbərlər "bəzəyir". Sosial şəbəkələrdə "patı" adlı maddə istifadəçilərinin içacıdan görüntülərini izləyirik. Narkotikin təsirindən qeyri-adi hərəkətlər edir, özlərini itirirlər.

Gözlərinin alt hissəsi qaralır, bəbəkləri itir, dizləri bükülür. Filmlərdə gördüyümüz "zombi"lərə bənzəyirlər. Əksər hallarda isə zəhrimardan çox istifadə etdikləri üçün həyatla vidalaşırlar. Artıq narkotik vasitələr o qədər əlçatandır ki, nəinki gənclər, yeniyetmələr belə bu bəlaya düçar olurlar. Texnologiyanın inkişafından yararlanıb narkotik vasitələri sosial şəbəkələrdə satışa çıxarırlar. Elə bu gün genişmiqyaslı əməliyyat nəticəsində sosial şəbəkələrdə narkotik satan dəstə ifşa edilib. Məlum olub ki, onlar "şüşə", "patı" adlanan metamfetamin və "kola", "kakos" adlanan heroinin satışı ilə məşğul imişlər.

Bəs, gəncliyimizi "ağ ölümün" əlindən necə qurtaraq?

**"Şərq" vasitəsilə gənclərə çağırış edən Xalq artisti Nurəddin Mehdixanlı vurğulayıb ki, bir millətin varlığı onun sağlam nəslinin yetişməsi ilə bağlıdır:** "Bir xalqa qarşı açıq savaş apara bilməyəndə, onunla gizli savaşırlar. O cür bədnamların silahlarından biri isə narkotikdir.

Çox qəribədir ki, Azərbaycan doğma torpaqlarını işğaldan azad etdikdən sonra düşmənlərimiz gəncliyimizə qarşı savaş başladıblar. Bu, bizim nəslimizi məhv etmək məqsədi daşıyır. Hər bir valideyn övladını nəzarətdə saxlamalıdır və gənclərimiz bilməlidirlər ki, onlar şərəfli millətin nümayəndələridirlər.

Buna uyğun yaşamalıdırlar. Vətəndaşlarımız bizə qarşı açılan savaşa "yox" deməyi bacarmalıdırlar. Vəzifəsindən, peşəsindən, mövqeyindən asılı olmayaraq hər kəs qarşı çıxmalıdır. Narkotikaya və onun satıcılarına, alıcılarına açıq müharibə elan olunmalıdır. Azərbaycan hüquq- mühafizə orqanları, Daxili İşlər Nazirliyi bununla bağlı ciddi işlər görürlər. Amma xalqın birbaşa dəstəyi olmadan aparılan mübarizə istədiyimiz nəticəni verə bilməz. Ona görə 10 milyon azərbaycanlı bu savaşın döyüşçüsü olmalıdır.

Necə ki, yumruq kimi birləşib, torpaqlarımızı azad etdik, böyük güclərə qarşı vuruşduq. İndi də eyni şəkildə narkomaniyaya qarşı birgə mübarizə aparmalıyıq, alıcılarını və satıcılarını layiq olduqları cəzaya yetirməliyik. Başqa yolumuz yoxdur, bu ilanın və onu bizim yurdumuza soxanların başlarını əzməliyik. Çünki biz qalib millətik, bir olanda güclü oluruq, güclü olanda da həll edə bilməyəcəyimiz problem yoxdur. Allah millətimizi, qalib gəncliyimizi qorusun. İnanıram ki, bu müharibədə də qələbə qazanacağıq".

**Samirə Ərəblinski**

## Ali məktəbləri mühafizəçisiz buraxmayın!

### Mülki nəzarətçi silahlı terrorçunu necə zərərsizləşdirə bilər?

**Azərbaycan universitetlərinin girişində təhlükəsizliyin təmin olunması məqsədilə mühafizəçilər qoyulur. Bəzən isə bu, yalnız formal xarakter daşıyır. Hətta tələbə olmayan şəxslər belə ali təhsil müəssisəsinə daxil olur.**

Bir neçə il bundan öncə ADNA-da baş verən terror hadisəsi universitetlərdə təhlükəsizlik tədbirlərinin kifayət qədər yetərli olmadığını göstərdi. Bu günləri də bəzi universitetlərimizdə bu formallıq hələ də qalmaqdadır. Ötən gün Rusiyanın Perm Universitetində baş vermiş atışma hadisəsi də universitetlərdə təhlükəsizlik məsələsini gündəmə gətirdi. Qeyd edək ki, bu hadisə nəticəsində 10-a yaxın tələbə həlak oldu, 24 nəfər yaralandı. Hadisənin maraqlı tərəfi isə tələbələrə və müəllimlərə atəş açan şəxsin həmin universitetin hüquq fakültəsinin birinci kurs tələbəsi olması idi. Rusiyada yaşanan bu qanlı olayı Rusiya lideri Vladimir Putin fəlakət kimi xarakterizə edib. Qeyd edək ki, tələbələr universitetə qayıdarkən bir-biriləri ilə qucaqlaşaraq ağlaşıblar. Təbii ki, bu kimi hadisələr gənclərdə böyük travmaya yol açır. Bəs, bizim sayı 50-yə qədər olan ali məktəblərimizdə təhlükəsizlik tədbirləri necədir?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında bildirib ki, təhsil ocaqlarında təhlükəsizlik məsələsinə daha həssas yanaşmaq lazımdır. Ekspert qeyd edib ki, heç kim bu cür terror hadisəsindən sığortalanmayıb və ona görə də təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə ehtiyac var:** "Nəzərə alaq ki, universitetdə təhsil alanların yaş həddi yeniyetmə dövründə olduğu üçün onlar bu cür hadisələr zamanı müstəqil qərar qəbul edə bilmirlər. Məhz bu səbəbdən də təhsil ocaqlarında təhlükəsizlik məsələsinə daha ciddi yanaşılmalıdır. Universitetlərdə təhlükəsizliyin təmin edilməsi üçün bəziləri özəl mühafizə şirkətləri ilə müqavilə əsasında bunu təmin edir, bəzilərini DİN-in mühafizə polisi qoruyur. Qeyd edim ki, təhsil ocaqlarında baş verən hər hansı neqativ hadisələr uşaqlara həm mənəvi, həm də psixoloji təsir edir və onlarda silinməz izlər buraxır. Onun üçün baş verə biləcək xoşagəlməz hadisələri minimuma endirmək və hadisədən sonra yarana biləcək fəsadları azaltmaq üçün öncədən zəruri tədbirlər görülməlidir. Buna görə də ali məktəb ərazilərinin ciddi şəkildə qorunmasına ehtiyac var".

E.Nurəliyev qeyd edib ki, təhlükəsizlik kompleks görülən tədbirlər planıdır: "Hesab edirəm ki, müəllimlərin təhlükəsizliklə bağlı maarifləndirilməsinə ehtiyac var. Çünki fövqəladə vəziyyətdə onların üzərinə böyük məsuliyyət düşür. Təbii ki, vəziyyəti qorumaq üçün onlarda ilkin biliklərin olması vacibdir. Universitetlərdə və məktəblərdə mütəmadi olaraq həyəcan siqnalları verilməklə, praktiki olaraq bu təlimlərin keçirilməsi zəruridir. Deyərdim ki, idman və əmək dərslərinin aylıq müəyyən saatlarında bu cür təlimlər təşkil edilməlidir. Çünki bu cür təlimlər uşaqların yaddaşında daha yaxşı qalacaq və fövqəladə vəziyyətdə onlar nə etmək lazım olduğu haqqında məlumatlı olacaqlar".

**Ekspert diqqətə çatdırıb ki, qabağına məqsəd qoyan terrorçunun qarşısını qapıda dayanan mühafizəçi ala bilməz:** "Çünki mühafizəçi giriş-çıxışa




### Elmar Nurəliyev: "İçəridə mərkəzləşmiş siqnalizasiya sisteminin olması və yaxınlıqdakı DİN-in polis bölməsinə birbaşa bağlanılması yaxşı olar"

nəzarət edir, kənar şəxslərin buraxılmamasını təmin edir. Sadəcə təcrübəli mühafizəçilər özünü şübhəli aparan şəxsi, yaxud əşyanı diqqətindən buraxmır ki, bu da belə planlaşdırılmış terrorun qabağını öncədən almağa kömək edir. Ona görə də belə yerlərə əsasən təcrübəli mühafizəçilər işə götürülməlidir. Ancaq bu o demək deyil ki, əlimizi-qolumuzu sallayıb deyək ki, hadisə olsa onsuz qabağını ala bilməyəcəyik. Bunun üçün kompleks tədbirlər planı görmək lazımdır. Binanın fiziki olaraq qorunmasını təşkil etmək lazımdır. Qapıda bir nəzarətçinin qoyulması o demək deyil ki, mühafizə etibarlı təşkil edilib. O nəzarətçi əlində silah ilə gələn terrorçunun qabağına necə çıxa bilər? Çıxsa, terrorçu onu vurub sonra daxil olacaq. Demək ki, təhlükəsizlik məsələsinə daha geniş yanaşmaq lazımdır. İndi texnologiya dövrüdür. Elektron informasiya sistemlərinin, nəzarət-müşahidə avadanlıqlarının, siqnalizasiya vasitələrinin köməkliyi ilə təhlükəsizlik tədbirləri görülə bilər. Təbii ki, cinayəti planlayan şəxs birbaşa ora gəlmir. Onun üçün günlərlə, aylarla ölçüb-biçir, plan cızır. Həmin yerə dəfələrlə gəlib-gedir, nəyi necə etməyi və harada boşluqlar var, onu özündə müəyyən edir. Baxın, bu əsasdır, terrorçu boşluqları müəyyən edir və daha sonra öz çirkin əməlini həyata keçirir. Demək ki, əvvəl şərait yaranır, sonra hadisə olur. Əgər həmin şəxs ora gələndə orada mühafizəni təşkil edən şəxslərin istər vizual, istərsə də nəzarət kamerası ilə baxanda diqqətini çəkərsə, onda onu araşdırar və nəzarətçi aidiyyəti üzrə önləyici tədbirlər görə bilər. Yəni beyində terror kimi bir dəhşəti seçmiş adam pəncərədən də içəri girə bilər. Ümumiyyətlə, universitet və məktəblərdə ehtiyat çıxış qapısının olması, içəridə fövqəladə vəziyyətdə hərəkəti göstərən lövhələrin olması, hər mərtəbədə fövqəladə vəziyyətdə səsgücləndiricinin yerləşdirilməsi vacibdir. Çünki onun sayəsində içəridəkiləri məlumatlandırmaq olar ki, bu da həmin şəxslərin təhlükəsizliyi üçün faydalı olar. Yəni Neft Akademiyasındakı hadisədə məlumatsızlıqdan insanlar nə etməli olduğunu bilmirdilər və hətta həmin hadisədə özünü yuxarıdan atanlar da oldu. İçəridə mərkəzləşmiş siqnalizasiya sisteminin olması və yaxınlıqdakı DİN-in polis bölməsinə birbaşa bağlanılması hadisə vaxtı məlumatın daha operativ şəkildə hüquq-mühafizə orqanına ötürülməsini təmin edər. Və qısa zaman ərzində polis əməkdaşları orada olarlar. Ona görə hesab edirəm ki, universitetlərdə bu kimi hallara xüsusi diqqət yetirilməlidir".

**Aynurə Pənahqızı**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1762



## Çimərliyə hüzn çöküb

63 pinqvin arı hücumundan sonra ölüb

**Cənubi Afrikada turistlərin çox getdiyi dünyaca məşhur "Boulders" çimərliyində kədərli hadisə baş verib.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, nəsli tükənmək təhlükəsi ilə üzləşən 63 Afrika pinqvini arı hücumundan sonra ölüb.

Cənubi Afrika səlahiyyətliləri pinqvinlərin bölgədə ilk dəfə arı hücumuna uğradığını söyləyib. Mütəxəssislər pinqvinlərin və arıların heç bir problem yaşamadıqlarına diqqət çəkirlər. Ancaq arıların pətəyi zədələndikdən sonra aqressivləşdiyi və pinqvinlərə hücum etdikləri bildirilir. Pinqvinlərin xüsusilə gözlərinin ətrafından sancıldığı qeyd olunub. Onların sayının sürətlə azalması ətraf mühitin dəyişməsi ilə əlaqədardır.

**Yeganə**

## Ad günü vaya döndü

Hədiyyə paketi partladı, 2 nəfər həyatını itirdi



**Meksika mətbuatında yayılan xəbərə görə, "Guanajuato" əyalətinin Salamanca şəhərində restoranda ad günü ziyafəti təşkil edən iş adamına bomba tələsi olan hədiyyə paketi göndərilib.**

"Şərq" "Haberglobal.com"a istinadən bildirir ki, paket açıldıqdan sonra bomba partlayıb və nəticədə 2 nəfər həyatını itirib, 4 nəfər isə yaralanıb.

Səlahiyyətlilər hədiyyə qutusuna yerləşdirilən partlayıcının motosikletlə gələn 2 nəfər tərəfindən ad günü sahibinə təhvil verildiyini bildirib. Partlayışda həyatını itirənlərdən birinin tədbirin keçirildiyi məkanın sahibi olduğu bildirilir.

**Yeganə**



## İlk dəfə birgə müsahibə veriblər

"Cenniferin dünyaya təsirinə heyranam"

**Müğənni Cennifer Lopez sevgilisi Ben Affleklə eşq yaşamağa başladıqdan sonra ilk dəfə birgə müsahibə veriblər.**

Axşam.az xəbər verir ki, "Adweek"ə danışan Cennifer karyerasından bəhs edərək öz timsalında hər irqdən olan insanın uğur qazana biləcəyini açıqlayıb.

Affleck öz növbəsində sevgilisinə heyran olduğunu bildirib: "Cenniferin dünyaya təsirinə heyranam. Bir sənətçi kimi edə biləcəyim ən böyük şey insanlara təsir edən filmlər çəkməkdir. Cennifer isə insanlara bu ölkədə hər birinə yer olduğunu hiss etmələri üçün ilham verir. Tarixdə çox az adam bunu bacarıb. Mən bunu heç vaxt edə bilmərəm, amma bunu dəstəkləyirəm, hörmət edirəm və heyranam". Cütlük yeni ildə bir yerdə olmaq üçün işlərinə ara verəcəklərini və övladları ilə birgə vaxt keçirəcəklərini qeyd ediblər.

## Aeroportlarda COVİD xəstələrini itlər aşkar edəcək



**COVID-19 xəstələrini aşkar etmək üçün "canlı detektorlar" kimi xüsusi təlim keçmiş itlərdən istifadə ediləcək. İlk dəfə bunu Amerikanın Mayami kurort hava limanı sınaqdan keçirəcək.**

Tourprom.ru yazır ki, "detektor itlər" hava limanları kimi ictimai yerlərdə virusu dərhal aşkar edərək cavab vermək potensialına malikdir. Təlimin nəticələrinə əsasən, detektor itlərin ilk sınaqlarda COVID-19 xəstələrini aşkarlama səviyyəsi 96-99% arasında olub. "Şərq" aviatravel.az-a istinadən bildirir ki, yerli KİV-lərin xəbərinə görə, proqram çərçivəsində Cobra (Belçikalı Malinois) və One Betta (Hollandiyalı Çoban Köpeği) adlı iki itə COVID-19 qoxusunu tanımaq üçün təlim keçirilib. "Virus insanlarda metabolik dəyişikliklərə səbəb olur, nəticədə uçucu üzvi birləşmələr əmələ gəlir. İkincisi, insanın nəfəsi və təri ilə ifraz olunur və təlim keçmiş itlər tərəfindən bilinən spesifik qoxu yaradır. Metabolik dəyişikliklər fərdi qoxulardan asılı olmayaraq bütün insanlar üçün xarakterikdir. Bir it bir insanın virus qoxusu daşıdığını göstərirsə, bu adam COVID üçün sürətli test verməyə göndərilir. Hamının bildiyi kimi, itlər narkotik vasitələri, partlayıcı maddələr və digər təhlükəli qaçaqmalları aşkar etmək üçün uzun müddətdir dünyanın hər yerində hava limanlarında istifadə olunur.



# Qızıl qayda

## Validеynlər uşaqlarını sevmədiyi yeməklərə alışdıra bilərlər

Aynurə Pənahqızı



**Uşaqlara sağlam qidalanma vərdişlərinin aşılanmasında ən vacib vəzifə valideynlərin üzərinə düşür. Mütəxəssislər qeyd edirlər ki, ilk növbədə valideynlər uşaqlarına sağlam qidalanma üçün yaxşı nümunə olmalıdır.**

Çünki hər mövzuda olduğu kimi, uşaqlar yeməkdə də valideynlərindən nümunə götürürlər. Türkiyəli mütəxəssis dietoloq Aslıhan Küçük Budak bildirib ki, valideynlər ilk növbədə yeməkləri seçməməlidir. O qeyd edib ki, əgər uşaqlar hər hansısa yeməyi sevmirsə, onun həmin yeməyi yeməsini gözləmək düzgün deyil: "Misal olaraq, nahar üçün süfrədə hər hansısa onun bəyənmədiyi yemək var, o zaman ona kartof qızardın və həmin yeməyə toxunmayın. Əgər uşağınızın sevmədiyi yeməkdən yeməyini istəyirsinizsə, öz boşqabınızın kiçik bir hissəsinə ondan bir az tökün və onunla birlikdə yeyin. Müntəzəm olaraq uşağınızla birlikdə bir ailə olaraq masada oturun. Çünki uşaqlar izdihamlı masalarda daha yaxşı yemək yeyirlər və birlikdə olmaq uşaqlarınızın yemək vaxtlarını səbirsizliklə gözləməsinə səbəb ola bilər". **Aslıhan qeyd edib ki, yeməyi yeyə biləcəyiniz qədər boşqaba qoyun, çünki uşağınız bu davranışı daim müşahidə edəcək və onu gələcəkdə özü üçün də tətbiq edəcək:** "Yemək yeyərkən yalnız yeməyinizə diqqət edin və ailənizlə keçirdiyiniz vaxtdan zövq alın. Yemək zamanı televizora baxmaq, iş görmək və telefona oynamaq və s. kimi vərdişlər uşağınızın bu davranışı birbaşa kopyalamasına səbəb ola bilər. Ümumiyyətlə, uşaqlara cipsi, şokolad, tort, peçenye kimi sağlam olmayan qəlyanaltılar alınmamalıdır. Bunun əvəzinə meyvə, qoz-fındıq və evdə hazırlanan tortlar kimi sağlam qəlyanaltılar qəbul edilməsi daha məqsədəuyğundur".



**Həkim-pediatr Tərlan Əyyubov "Şərq"ə açıqlamasında övladı yemək yemək istəməyən valideynlərə tövsiyələr verib. Pediatr iştahı olmayan uşaqların məcbur şəkildə yedizdirilməsinin əleyhinə olduğunu bildirib:** "Uşaqlarınızı zorla yedizdirməkdən çəkinin. İmkan verin uşaq orqanizmi, xüsusən də onun beyni aclıq hissini hiss etsin, qidalanma davranışı, reflekslər formalaşsın. Uşağa gün rejiminin tərtib edilməsi vacibdir, yəni qidalanma rejimə salınmalı, eyni saatlarda verilməlidir. Yeməyən uşağı yeməklər arası qidalandırmağa çalışmayın. Yeməyən uşağa qidalar arasında rejimə düşənədək adi sudan başqa heç nə verilməməli, xüsusilə də, karbohidratlarla (şəkərlə) zəngin qidalar - yəni, çörək, konfet, bişmələr, şirin, və s. Qidalar arası uşaqların iştahasını yaxşılaşdırmaq üçün aktiv oyunlardan (qaçmaq, tullanmaq və s.) istifadə edilməlidir".

Pediatr bu qaydalara ciddi riayət etdikdə adətən 10 gündən sonra orqanizmdə qidalanma refleksinin yarandığını və təyin olunmuş saatlarda uşaqların (nəinki uşaq hətta böyüklər də) acdığını bildirib.





# 550 canlıya yuva...

## "Müalicə etmədimsə yata bilmirəm"

**"Mələklər Şəhəri" Küçə Heyvanlarını Qoruma Dərnəyi şəxsi imkanlarıyla küçə heyvanları üçün sığınacaq təşkil edib. Sığınacaqda yardıma möhtac heyvanlar yalnız bəslənmir, həm də müalicə olunurlar.**

"Şərq" "Milliyyet.com"a istinadən bildirir ki, dərnəyin başqanı Koray Öztaş dərnək üzvləri və yardımsevərlərin dəstəyi sayəsində daha çox küçə heyvanını bəsləyə biləcəklərini düşünür. K.Öztaş dərnəyin fəaliyyətini anladıb və qeyd edib ki, dərnək fəaliyyətə başlamadan öncə də küçədəki heyvanları qidalandırır, xəstə olanları müalicə etdirirmiş. Bir dəfə küçə itini sığınacağa təhvil verərkən sığınacaqların həqiqi fəaliyyəti ilə tanış olmaq fürsəti əldə edib. Sığınacaq könüllüsü kimi çalışmağa başlayıb. Bu sığınacaq yaşadığı əraziyə məsafəcə uzaq olduğundan yaxın bir yerdə sığınacaq təşkil etmək qərarına gəlib. Silivri-Çatalca bölgəsində ərazi kirayələyiblər. İlk zamanlar 40 küçə heyvanı saxlanıb sığınacaqda, indi isə heyvanların sayı 550-dir. Dərnək 550 cana sahib çıxıb. **K.Öztaş məqsədlərinin küçə heyvanlarının qorunması, qidalandırılması olduğunu deyir:** "Xüsusən bunu demək istəyirəm ki, hər bir canlının, o cümlədən də küçə heyvanlarının yaşamaq haqqı var. Məqsədimiz cəmiyyətdə heyvanlara sevgini artırmaqdır". Dərnək heyvanlara sahib olmaq istəyənlərlə əlaqə yaradır və uyğun görüldüyündə heyvanları yeni sahiblərinə təslim edirlər. Dərnək fəaliyyətini üzvlərin və yardımsevərlərin ianələri hesabına davam etdirir. Bu çox çətindir, çünki üzvlərin sayı elə də çox deyil. Bu baxımdan dərnək heyvanlara qulluq göstərilməsində çətinlik çəkir. Buna baxmayaraq daha bir canı qorumaq üçün əllərindən gələni edirlər. K.Öztaş "cəmiyyətdə, təəssüf ki, "heyvana verəcəyiniz dəyəri insana verin" düşüncəsi ilə yaşayanlar var. Bu yanlış fikrə qarşı mücadilə aparan dərnək olaraq demək istəyirəm ki, Yaradana hörmət, Yaradana xatir hər canlının doyunca yemək və nəfəs almağa haqqı var. Səhv fikirdə olanlar danışa bilməyən dostlarımızla ünsiyyət qurmaqda çətinlik çəkənlərdir".

**Məlahət**

## Qulağından, maskadan nələr çıxdı

Sürücülük vəsiqəsi üçün imtahana girən biabır oldu



**Sürücülük vəsiqəsi əldə etmək üçün Türkiyədə təşkil olunan imtahanda maraqlı hadisə yaşanıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Kırıkkale Milli Təhsil Müdirliyi tərəfindən təşkil edilən imtahana kopyalama mexanizmi ilə girən şəxs və ona kömək edən şübhəli tutulub. Aparılmış istintaq tədbirləri zamanı S.A (30) üzərindən qulaqda gizlənmiş qulaqcıqlar, maskada gizlədilən kamera, portativ "wifi" cihazı və qəbuledici aşkarlanıb. Polis qrupları imtahan zamanı onunla koordinasiya edən H.K -nı (40) adlı şəxsi də avtomobilində saxlayıb. Onun üzərindən isə SİM kart, qulaqda qulaqlıq batareyası, 4 SİM kart qutusu, fləş kart və mobil telefon ələ keçirilib. Nəzarətə alınan şübhəlilər polis bölməsindəki prosedurlardan sonra ədliyyəyə göndəriləcək.

**Aynurə**